RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 123 (8439) ÇƏRŞƏNBƏ AXŞAMI, 30 iyun 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az






# İlham Əliyevin təşəbbüsü ilə bu dəfə BMT Baş Assambleyası toplanacaq

Prezident İlham Əliyevin bu il mayın 4-də keçirilən Qoşulmama Hərəkatının "COVID-19-a qarşı birlikdəyik" mövzusunda Zirvə görüşü zamanı BMT Baş Assambleyasının Xüsusi Sessiyasının təşkil olunması təşəbbüsü reallığa çevrilir. Belə ki, artıq 130-a qədər ölkə İlham Əliyevin təşəbbüsünə dəstək verdikləri barədə BMT Baş katibinin ofisini məlumatlandırıblar.

## Azərbaycan qlobal əməkdaşlığa layiqli töhfələr verir

Koronavirus infeksiyası bütün bəşəriyyəti təhdid etməkdə davam edir. Son statistikaya əsasən, artıq dünyada 10 milyondan artıq insan COVID-19-a yoluxub. Virusdan ölənlərin sayı isə 500 mini ötüb. Yaxın dövrlər üçün üfüqdə ümidverici heç nə görünmür. Ən inkişaf etmiş ölkələr belə bu təhlükənin qarşısında aciz durumda qalıb.

Bu qlobal problem bir sıra şərtləri diktə edir ki, onlardan biri də virusla mübarizədə beynəlxalq həmrəylikdir. Təsadüfi deyil ki, həyata keçirdiyi mübarizə tədbirlərinə görə beynəlxalq səviyyədə təqdir olunan Azərbaycan dövləti koronavirusun qarşısının alınmasında yalnız yerli nümunələr yaratmaqla kifayətlənmir. Məsələ ondadır ki, Prezident İlham Əliyev virusun qlobal problemə çevrilməsini nəzərə alaraq onunla mübarizədə beynəlxalq əməkdaşlığı zəruri hesab edir. Məhz İlham Əliyevin təşəbbüsü ilə aprelin 10-da Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşünün keçirilməsində də əsas məqsəd koronavirusun yayılmasına qarşı mübarizədə beynəlxalq əməkdaşlığın həyata keçirilməsindən ibarət olub.

Türk Şurasının fövqəladə Zirvə görüşü pandemiya ilə mübarizəyə həsr olunmuş ilk beynəlxalq tədbir idi. Bu tədbir məhz Prezident İlham Əliyevin təşəbbüsü ilə reallaşdı. Təsadüfi deyil ki, məhz bundan sonra qlobal problemin mənfi təsirlərini azaltmaq üçün dövlətlərin birgə səy göstərmələri bütün dünyada aktuallaşmağa başladı. Mayın 4-də isə İlham Əliyevin təşəbbüsü ilə ikinci beynəlxalq tədbir - Qoşulmama Hərəkatının Təmas Qrupu formatında videokonfrans vasitəsilə "COVID-19-a qarşı birlikdəyik" mövzusunda Zirvə görüşü keçirildi.

## İlham ƏLİYEV: "Pandemiya şəraitində ölkələr və beynəlxalq təşkilatlar arasında həmrəylik və əməkdaşlıq xüsusilə aktualdır"

40-a yaxın ölkənin dövlət və hökumət başçısının, xarici işlər nazirlərinin, o cümlədən BMT Baş Assambleyasının prezidentinin, Afrika İttifaqının sədrinin, Ümumdünya Səhiyyə Təşkilatının Baş direktorunun iştirak etdiyi Zirvə toplantısı, ilk növbədə, Azərbaycana və Prezident İlham Əliyevə olan inamın, etibarın və etimadın göstəricisi kimi tarixə düşdü. O cümlədən Zirvə görüşünə BMT-nin Baş katibi Antonio Quterreşin və Avropa İttifaqının ali nümayəndəsi və Avropa Komissiyasının vitse-prezidenti Cozef Borelin videomüraciət ünvanlaması, habelə Zirvə görüşünü təşkil etdiyinə və pandemiya ilə mübarizəyə ciddi əməli töhfələr verdiyinə görə Azərbaycan Prezidentinin fəaliyyətinin təqdir olunması, ünvanına çoxsaylı təşəkkürlər bildirilməsi ölkəmizin və onun liderinin beynəlxalq arenada yüksək nüfuzunun növbəti əyani göstəricisi oldu.

Ardı 3-cü səh.

# İçərişəhərdə aparılan bərpa-konservasiya işləri Prezidentin və birinci xanımın nəzarətindədir



İyunun 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğunun bir hissəsində aparılan bərpa-konservasiya işləri ilə tanış olublar.

AZƏRTAC xəbər verir ki, UNESKO-nun Ümumdünya Mədəni İrsi Siyahısına daxil olunan, xalqımızın qədim və zəngin tarixini sübut edən İçərişəhərdə birinci xanım Mehriban Əliyevanın təşəbbüsü və Heydər Əliyev Fondunun dəstəyi ilə həyata keçirilən bərpa-konservasiya işləri Qoşa Qala qapılarını da əhatə edib.

Ardı 2-ci səh.

# Birinci vitse-prezident Mehriban Əliyeva Azərbaycanın hərbi qulluqçularını və veteranlarını təbrik edib



Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Silahlı Qüvvələr Günü münasibətilə özünün "Instagram" səhifəsində paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "Ölkəmizin bütün hərbi qulluqçularını və veteranlarını təbrik edirəm! Hər kəsə möhkəm cansağlığı, Vətənimizə - sülh və əmin-amanlıq arzulayıram!"

**Prezident İlham ƏLİYEV:**
**"Hər bir ölkənin energetika sistemi onun döyünən ürəyidir"**



# Yenidən qurulan «Azərbaycan» İES-in dayanıqlılığı, təhlükəsizliyi və səmərəliliyi artıb

Bu gün Azərbaycan təkcə neft və qaz deyil, həm də elektrik enerjisi ixrac edən ölkə kimi tanınır. İqtisadiyyatında bu sahələrin hamısının inkişaf etdiyi ölkələr dünyada təktəkdir. Odur ki, çox ölkələr istehlak etdikləri yanacaq və enerjinin bir hissəsini xaricdən alırlar. Azərbaycanda yaradılan generasiya gücləri isə ölkəmizə həm əhalisini və iqtisadiyyatını elektrik enerjisi ilə təmin etməyə, həm də onun ixracatçısı olmağa imkan verib. Əsaslı yenidənqurmadan sonra istifadəyə verilən "Azərbaycan" İstilik Elektrik Stansiyası ölkəmizin enerji sisteminin gücünü daha da artırıb.

"Azərbaycan" İES Ulu Öndər Heydər Əliyevin əsəridir. Belə ki, bu nəhəng enerji obyektinin tikintisinə 1974-cü ildə Ümumilli Liderin təşəbbüsü ilə başlanmışdı. Stansiyasının birinci enerji bloku 1981-ci, sonuncu - 8-ci bloku isə 1990-cı ildə istismara verilmişdi. Əgər sovet dönəmində bu stansiya tikilməsəydi, müstəqillik dövründə Azərbaycan ciddi problemlərlə qarşılaşa bilərdi.

Ardı 4-cü səh.

# Dövlət növbəti dəfə vətəndaşının yanında olduğunu sübut etdi

Deyəsən, bu virus çox su aparan xəmir kimi, dövlətlər və xalqlar üçün hələ xeyli problem yaşadacaq. İlin əvvəlindən bəri sürətlə bütün qitələri çənginə alan COVID-19 ötən ay nisbətən səngisə də, artıq bir neçə gündür yenidən "qızışıb". Azərbaycan daxil bütün ölkələri sərt karantin tədbirlərini tədricən də olsa yumşaltmaqlarına peşman edən koronavirus sanki acığa düşübmüş kimi əlini dünyanın ətəyindən çəkmək istəmir.

İş o yerə çatıb ki, virusa qarşı mübarizə aparanlar, o cümlədən Ümumdünya Səhiyyə Təşkilatının mütəxəssisləri koronanın yenidən qayıtmasına bilmirlər nə ad qoysunlar - yeni dalğamı, yoxsa köhnə dalğanın yeni mərhələsimi?! Bütün hallarda adına nə qoyulur qoyulsun, bu günəşli günümüzü zülmətə çevirən pandemiyanın sərt qaydaları sağlamlığımız sarıdan bizi təkcə psixoz hala salmayıb, həm də iş-gücümüzdən edib. İndiki zamanda isə iş-gücdən olmaq təkcə ciddi iqtisadi yox, həm də kövrək sosial problemdir. Əks halda imkanlı dövlətlər bu mürəkkəb zamanda əhalinin sosial güvənliyinin təmin olunmasını koronavirusla mübarizənin vacib tərkib hissəsi kimi önə çəkməzdilər. Və çox fərəhli haldır ki, Azərbaycan da pandemiyanın elan edildiyi ilk gündən həmin imkanlı dövlətlər sırasındadır.

Məhz həmin vaxt Prezident İlham Əliyevin tapşırıqlarına əsasən Nazirlər Kabinetinin təsdiqlədiyi Tədbirlər Planına uyğun olaraq, ölkəmizdə pandemiya ilə bağlı 4,8 milyon vətəndaşı əhatə edən məşğulluğa və sosial rifaha dəstək tədbirləri həyata keçirildi. Bu tədbirlər çərçivəsində işçilərdən və xüsusi karantin rejiminə görə işini itirən, qeyri-formal çalışan şəxslərdən ibarət aztəminatlılara aprel-may aylarında aylıq 190 manat birdəfəlik ödəniş proqramı icra olundu. Həmçinin işsizlikdən sığorta ödənişinin müddəti bitmiş işsiz şəxslərə, ünvanlı dövlət sosial yardımının verilmə müddəti bitənlərə, peşə hazırlığı prosesində fasilə yaranmış kursların müdavimlərinə, əlillik müddəti başa çatmış əlilliyi olan şəxslərə, o cümlədən sağlamlıq imkanları məhdud uşaqlara müvafiq ödənişlərin verilməsi müddətinin uzadılması təmin edildi.

Ardı 5-ci səh.



# Koronavirusla ölüm-dirim savaşında...

## Üç aydır pandemiya ilə mübarizə aparan həkim Məlahət İSAYEVA: "Vətəndaşlardan bircə xahişimiz var, bizim əməyimizi öz məsuliyyətləri ilə qiymətləndirsinlər"

"Təcili yardım maşını klinikaya yaxınlaşanda həyəcanlandı. Üzümə baxdı. "Doktor, mən yaşayacam?" - deyib sözünü axıra kimi gətirə bilmədi. Qəhər onu boğdu. "Əlbəttə, yaşayacaqsan, hələ uşaqlarının toyunu da görəcəksən", - söylədim və gülümsədim. İnandı mənə. Arabadan ayağa qalxıb təcili yardım maşınına mindi. Sağollaşıb, maşının qapısını örtdüm...

Qapının şappıltısı sanki üzümə bu anda dəyən solaxay şilləni xatırlatdı... Yanağım alışıb yandı. Əlimi üzümə çəkdim. İlahi, xəstənin gözlərinə baxa-baxa yalan danışmaq necə çətin imiş... Hər dəfə ağır, dönüşü geri mümkün olmayan xəstələrlə söhbət edəndə danışdığım yalana görə günlərlə vicdan əzabı çəkirəm..."

Bu sözlər hansısa bədii əsərdən bir parça deyil, real həyatımızın hazırkı acı, kədərli mənzərəsidir. Danışan isə roman qəhrəmanı yox, günümüzün, sözün əsl mənasında, qəhrəmanlarından biridir...

Koronavirusla aparılan ölüm-dirim savaşında ön cəbhədə vuruşan, ağ xalatlı, cəsur döyüşçülərdən biri...

Gecə-gündüz yorulmadan, çarəsiz, ağır xəstələrin qulluğunda dayanan, müalicəsini aparan, onları həyata qaytaran fədakar həkim...

Öz yorğunluğunu, istirahətini, şəxsi həyatını unudaraq, ailəsinə, övladlarına olan həsrətini sinəsinə çəkib şərəfinə and içdiyi peşəsini ləyaqətlə həyata keçirən tibb işçisi...

Ardı 5-ci səh.

# İçərişəhərdə aparılan bərpa-konservasiya işləri Prezidentin və birinci xanımın nəzarətindədir

Əvvəli 1-ci səh.













Bu qapılar sonuncu dəfə 1956-1957-ci illərdə təmir edilib. Mütəxəssislərin 2 il əvvəl apardığı müşahidələrin nəticəsinə əsasən abidədə həm daxildən, həm də xarici tərəfdən çatlar, deformasiyalar aşkar olunub. Qoşa Qala qapılarının və qala divarlarının Əziz Əliyev küçəsinə bitişik hissəsinin bərpa və möhkəmləndirmə işləri 2018-2019-cu illərdə həyata keçirilib. Görülən işlər nəticəsində bu qapıların tağlı keçidlərinin hörgüsü möhkəmləndirilib, gözətçi qülləsinə qalxan yollar və pillələr, qala divarının bu hissədən keçən "əsgər yolu" bərpa edilib.

Dövlət başçısına və birinci xanıma "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğunda bu il görülən və gələn il icra olunacaq işlər barədə məlumat verildi.

Bildirildi ki, burada uşaq əyləncə və idman meydançası yaradılıb. İçərişəhərdə XV əsr abidəsi olan "Buxara" karvansarasına bitişik ərazidə yardımçı sahə kimi istifadə edilən binada "Sənət və sənətkarlıq" adlı ənənəvi sənət mərkəzinin yaradılması planlaşdırılır. Paytaxtda ilk olaraq belə bir mərkəzin yaradılmasında məqsəd Azərbaycanda yaşayıb-yaradan çox sayda istedadlı sənətkarı bir araya gətirərək onların əl işlərinin satışı və sərgilənməsi, ustad dərslərinin keçirilməsi üçün vahid məkanın qurulmasıdır. Bundan başqa, "İçərişəhər" sərgi qalereyasının da yaradılması nəzərdə tutulur.

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya 2018-ci ildən Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilən "İstedArt" layihəsi barədə də məlumat verildi.

Qeyd edildi ki, layihə Bakı şəhərində, eləcə də ətraf qəsəbə və kəndlərdə yerləşən sağlamlıq imkanları məhdud və valideyn himayəsindən məhrum olan uşaqlar üçün 10 internat məktəbini və Daun Sindromlu Uşaqların Reabilitasiya Mərkəzinin uşaq və yeniyetmələrini əhatə edir. İndiyədək layihədə 154 istedadlı uşaq və yeniyetmə iştirak edib. İndi layihənin 5-ci mövsümünə hazırlıq gedir. Növbəti mərhələyə 23 uşaq cəlb edilib.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 2016-cı ildə Qoşa Qala qapıları yaxınlığında aparılan arxeoloji qazıntılar zamanı aşkar edilən XVII əsrə aid Yeraltı hamama baxdılar.

Məlumat verildi ki, hamamın konservasiya-bərpa işləri iki il ərzində həyata keçirilib. Burada aparılan işlər zamanı xeyli sayda arxeoloji tapıntı da üzə çıxıb. Hamamda ümumilikdə 85 artefakt aşkarlanıb. Bütün Şərq hamamlarında olduğu kimi, temperatur rejiminin saxlanılması məqsədilə bu hamamın da yarısı yerin altında, yarısı isə üstündə inşa olunub. Buna görə də hamamın içi qışda isti, yayda isə sərin olurdu. Hər bir hamamda olduğu kimi, bu hamamın da qazanxana binası var.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva qazanxana binasına baxdılar.

Qeyd edək ki, burada ən maraqlı məqamlardan biri də yeraltı yolların olmasıdır. Ümumilikdə İçərişəhərdə bir neçə hamam olub. Onların arasında Şirvanşahların sarayı, Qasım bəy, Hacı Bani, Yeraltı, Ağa Mikayıl və Ağa Zeynal hamamları İçərişəhərdə bugünədək qorunan tarixi abidələrdir.

İçərişəhərdə XVII-XVIII əsrə aid Bakı Xanlarının Evi və ya Bakı Xan Sarayı Kompleksi də Qoşa Qala qapılarının yaxınlığında yerləşir. Kompleksdən xanlığın sonrakı hakimləri tərəfindən 1806-cı ilədək iqamətgah kimi istifadə olunub. Onun tərkibinə yaşayış binaları, Xan bağı, Yeraltı hamam, Orta əsrə aid ovdan, dulusçuluq emalatxanasının qalıqları, suarıtma sistemi, Xan məscidi daxildir. Burada bərpa və konservasiya, həmçinin abadlıq işlərinə 2018-ci ilin sentyabrından başlanılıb.

Ərazidə "Baqqal" suvenir və ənənəvi sənətkarlıq nümunələrinin sərgi və satış qalereyası, Kitab evi və milli yeməklərin təqdim olunduğu kafe də var.

Bakı Xan Sarayı Kompleksinin ətraf ərazisində gözəl park salınıb. Bu park şübhəsiz ki, paytaxt sakinlərinin və şəhərimizin qonaqlarının ən sevimli istirahət məkanlarından biri olacaq.

Bakı şəhərinin tarixində əhəmiyyətli yeri olan Bakı Xan Sarayı yaxın gələcəkdə əsaslı yenidənqurma, konservasiya və bərpa işlərindən sonra muzey şəklində ictimaiyyətə təqdim ediləcək. Burada qədim Bakının tarixi müasir, dinamik və rəqəmsal formada canlandırılaraq geniş ziyarətçi kütləsinə nümayiş olunacaq. Muzeydə audiobələdçilər, virtual reallıq texnologiyasının imkanlarından istifadə olunmaqla ayrı-ayrı mövzular üzrə ayrılmış otaqlarda tarixi keçmişi əks etdirən bədii-tarixi və animasiya filmləri təqdim ediləcək. Hazırda layihə üzrə işlər davam etdirilir və onun açılışı 2020-ci ilin sonuna planlaşdırılır. Burada aparılan işlər "Paşa Holdinq"in maliyyə dəstəyi ilə həyata keçirilir.

Bakı Xan Sarayı Kompleksinin bir hissəsi olan Xan məscidinin binası İçərişəhər Ənənəvi İncəsənət Mərkəzinin istifadəsinə verilib. Mərkəz 2012-ci ildə Heydər Əliyev Fondunun təşəbbüsü ilə təsis edilib. Mərkəzin binasında keramika, batika, zərgərlik, taxta və dekorativ rəngkarlıq kimi 4 fərqli dekorativ tətbiqi sənət növünü özündə birləşdirən "DASTAN" milli brendinin yeni şourumu və İçərişəhər Ənənəvi İncəsənət Mərkəzi tərəfindən ustad dərslərinin keçirilməsi, əl işlərinin satışı və sərgilənməsi üçün vahid məkan yaradılıb.

Dövlət başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İçərişəhərdə görüləcək işlərlə bağlı tapşırıq və göstərişlərini verdilər.

# İlham Əliyev həmkarını təbrik edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 29-da Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədova telefonla zəng edib.

Dövlət başçısı Qurbanqulu Berdiməhəmmədovu ad günü münasibətilə təbrik edib, ona möhkəm cansağlığı və Türkmənistanın firavanlığı naminə fəaliyyətində yeni-yeni uğurlar arzulayıb.

Türkmənistan Prezidenti göstərilən diqqətə və təbrikə görə dövlət başçısına minnətdarlığını bildirib.

Telefon söhbəti zamanı Azərbaycanla Türkmənistan arasında dostluq münasibətlərinin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə edilib, əməkdaşlığımızın uğurla davam etdiriləcəyinə əminlik bildirilib.

***Prezidentin Mətbuat xidməti***

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri!

Ölkənizin milli bayramı - Respublika Günü münasibətilə Sizə və dost Azərbaycan xalqına ən səmimi salamlarımı və təbriklərimi çatdırmaqdan böyük məmnunluq hissi duyuram.

İnanıram ki, Banqladeş ilə Azərbaycan arasında sıx əməkdaşlığa əsaslanan dostluq münasibətləri gələcəkdə daha da möhkəmlənəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik və uzun ömür, dost Azərbaycan xalqına isə davamlı sülh, tərəqqi və rifah diləyirəm.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Md. Əbdül HƏMİD,***
***Banqladeş Xalq Respublikasının Prezidenti***

# "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu və 12-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

"Mediasiya haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 597) 39-cu maddəsində "2020-ci il iyulun 1-dən" sözləri "2021-ci il yanvarın 1-dən" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 iyun 2020-ci il*

# Azərbaycan Respublikasının dəniz nəqliyyatı işçilərinin təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda dəniz nəqliyyatının inkişafında xidmətlərinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**3-cü dərəcəli "Əmək" ordeni ilə**

Babayev Abdulla Balasaday oğlu
Dadaşov Nadir Dərya oğlu
Əsədov Adışirin Zeynalabdin oğlu
Qəhrəmanov Nəsib Bafadar oğlu
Nəzərov Rasim Mikayıl oğlu

**"Tərəqqi" medalı ilə**

Ağabalayev Əlikram Nəzir oğlu
Fətullayev Babək Baba oğlu
Heydarov Hüseynqulu Novruz oğlu
Həsənova Kübra Əbdüləhəd qızı
Kərimov Elimdar Heydər oğlu
Səmədov Nazim Məhəmməd oğlu
Səmədov Raquf Şahvələd oğlu

**"Gəmiçilik sahəsində xidmətlərə görə" medalı ilə**

Ağayev Sadıq Məlik oğlu
Babayev Vahid Əlimirzə oğlu
Hüseynov Əfqan Hüseyn oğlu
Kazımov Gülağa Qasım oğlu
Mahmudlu Cəbrayıl İdris oğlu
Rəhimov Ehtiram Bəşir oğlu
Rəhimov Vamik Malik oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 iyun 2020-ci il*

# Azərbaycan Respublikasının dəniz nəqliyyatı işçilərinə "Əməkdar mühəndis" fəxri adının verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda dəniz nəqliyyatının inkişafında xidmətlərinə görə aşağıdakı şəxslərə "Əməkdar mühəndis" fəxri adı verilsin:

Abbasov Şəmsəddin Mustafa oğlu
Osmanov Mikayıl İdris oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 iyun 2020-ci il*

# Azərbaycanın Xarici İşlər nazirinin ATƏT-in Minsk qrupunun həmsədrləri ilə videokonfrans formatında görüşü olub

İyunun 29-da Azərbaycan Respublikasının Xarici İşlər naziri Elmar Məmmədyarovun ATƏT-in Minsk qrupunun həmsədrləri, İqor Popov (Rusiya), Stefan Viskonti (Fransa) və Endrü Şofer (ABŞ) və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşik ilə videokonfrans formatında görüşü olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə tərəflər Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi prosesinin cari vəziyyəti barədə fikir mübadiləsi aparıblar.

Nazir Elmar Məmmədyarov Azərbaycanın işğal olunmuş ərazilərində qanunsuz məskunlaşma və infrastruktur layihələri daxil olmaqla Ermənistan tərəfindən həyata keçirilən qeyri-qanuni fəaliyyət məsələsini qaldırıb.

Həmsədrlər imkan olan ilk fürsətdə iki ölkənin Xarici İşlər nazirləri arasında birbaşa təmasların qurulmasının əhəmiyyətini vurğulayıblar.

İyunun 30-da ATƏT-in Minsk qrupunun həmsədrlərinin və qurumun fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin vasitəçiliyi və iştirakı ilə Azərbaycan və Ermənistan Xarici İşlər nazirlərinin videokonfrans formatında görüşünün keçirilməsi nəzərdə tutulur.

# Ermənistan silahlı qüvvələri atəşkəs rejimini 27 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 27 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ermənistan Respublikası Çəmbərək rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub. İşğal altında olan Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qərvənd, Qaraxanbəyli, Horadiz, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Tərtər rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Nazirlər Kabinetində koronavirusla mübarizənin vəziyyəti müzakirə olunub



İyunun 27-də Azərbaycan Respublikası Baş Naziri Əli Əsədovun sədrliyi ilə keçirilmiş videomüşavirədə ölkəmizdə pandemiya ilə mübarizəyə dair son vəziyyət müzakirə olunub.

Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müzakirədə Azərbaycan Respublikası Prezidentinin iqtisadi məsələlər üzrə köməkçisi Şahmar Mövsümov, Birinci vitse-prezidentin köməkçisi Andrey Sipilin, Səhiyyə naziri Oqtay Şirəliyev, Səhiyyə nazirinin müavini Viktor Qasımov, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri Zaur Əliyev, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) İdarə Heyətinin sədri Ramin Bayramlı, Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Masallı Rayon İcra Hakimiyyətinin başçısı Şahin Məmmədov, Cəlilabad Rayon İcra Hakimiyyətinin başçısı Namiq Zeynalov, həmin şəhər və rayonların baş həkimləri, habelə Bakı şəhərinin koronavirus xəstələrinin müalicəsinə cəlb olunmuş dörd böyük xəstəxanasının rəhbərləri iştirak ediblər.

Qeyd olunub ki, iyunun ortalarından başlayaraq ölkəmizdə COVID-19-a yoluxma halları çoxalıb və bu, hökuməti ciddi narahat edir.

Əli Əsədov qeyd edib ki, Prezident İlham Əliyev Gəncə şəhərindəki çıxışı zamanı ölkəmizdə pandemiya ilə mübarizənin milli təhlükəsizlik məsələsi olduğunu bildirib və bu işi dövlətin ən mühüm prioriteti elan edib.

Baş Nazir bildirib ki, karantin rejiminin tətbiqindən sonra ötən dövr ərzində görülmüş işlərin nəticəsində xəstəliklə mübarizədə müsbət tendensiya müşahidə olunmaqdadır, ancaq biz arxayınlaşmamalıyıq və çarpayıların sayının artırılması, maddi-texniki bazanın gücləndirilməsi işini sürətləndirmək lazımdır.

Müşavirədə problemlər də müzakirə olunub və Baş Nazir müvafiq tapşırıqlar verib.

# *Hikmət HACIYEV:* "Dünyanın 130-dan çox dövləti Prezident İlham Əliyevin BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsi təşəbbüsünü dəstəklədi"

"Dünyada COVID-19 pandemiyası başlayandan bəri Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikası tərəfindən koronavirusa qarşı regional və qlobal səviyyədə mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə zəruri təşəbbüslər irəli sürülür və əməli addımlar atılır".



Bu fikri AZƏRTAC-a açıqlamasında Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib.

Hikmət Hacıyev bildirib ki, pandemiya insanların həyatını təhlükə altına qoyan ciddi sağlamlıq problemləri yaratmaqla bərabər, mənfi fəsadları hələ uzun müddət hiss olunacaq sarsıdıcı qlobal sosial-iqtisadi və humanitar təhlükələr yaradıb. Dünya müharibəsi ilə müqayisə olunan COVID-19 pandemiyası şəraitində özünütəcrid və franqmentar xarakterli tədbirlər əvəzinə qlobal həmrəyliyə və qlobal baxışa böyük ehtiyac var. Bu məqsədlə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının sədri statusunda Prezident İlham Əliyevin təşəbbüsü ilə bu təşkilatın dövlət və hökumət başçıları səviyyəsində aprel ayında fövqəladə Zirvə görüşü keçirildi. Türk Şurası ilk beynəlxalq təşkilat idi ki, COVID-19-a qarşı mübarizə mövzusunda Zirvə görüşü keçirdi.

Qoşulmama Hərəkatının sədri olan Prezident İlham Əliyevin təşəbbüsü ilə mayın 4-də Qoşulmama Hərəkatının Təmas Qrupunun COVID-19 pandemiyasına həsr edilmiş onlayn Zirvə görüşü təşkil edildi. Bu tədbirdə Qoşulmama Hərəkatına üzv dövlətlərlə yanaşı, BMT-nin Baş katibi, BMT Baş Assambleyasının prezidenti, Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru, Afrika İttifaqı və Avropa İttifaqı kimi beynəlxalq təşkilatların yüksək çinli nümayəndələri də iştirak etdilər. Tərkibində 120 ölkəni birləşdirən Qoşulmama Hərəkatı BMT-dən sonra dünya dövlətlərinin təmsil olunduğu ikinci ən böyük siyasi təsisatdır.

Prezidentin köməkçisi vurğulayıb ki, Azərbaycan Respublikası COVID-19-a qarşı mübarizədə qlobal həmrəyliyin nümunəsi kimi Ümumdünya Səhiyyə Təşkilatına könüllü ianə ayırıb, 30-dan artıq dövlətə humanitar yardım göstərib.

Prezident İlham Əliyev Qoşulmama Hərəkatının onlayn Zirvə görüşündə çıxışı zamanı qlobal həmrəyliyin nümunəsi kimi pandemiya ilə mübarizə məqsədilə BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində videokonfrans vasitəsilə xüsusi sessiyasının keçirilməsi təklifini irəli sürdü.

BMT Nizamnaməsinə əsasən, Baş Assambleya ehtiyac duyulduğu təqdirdə xüsusi sessiyalar keçirə bilər. Xüsusi sessiyalar BMT Təhlükəsizlik Şurasının və ya üzv ölkələrin çox hissəsinin müraciəti əsasında Baş katib tərəfindən çağırılmalıdır. BMT-nin təsis olunmasından indiyə qədər Baş Assambleyanın xüsusi sessiyaları məhdud sayda keçirilib.

Təklif Nyu-Yorkda Qoşulmama Hərəkatına 120 üzv ölkə arasında yekdilliklə razılaşdırılıb. Bundan sonra Qoşulmama Hərəkatının sədri Prezident İlham Əliyev Qoşulmama Hərəkatı ölkələri adından BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində videokonfrans vasitəsilə xüsusi sessiyasının keçirilməsi təklifi ilə Baş katib Antonio Quterreşə müraciət ünvanlayıb. BMT Baş katibi mayın 28-də Baş Assambleyanın "Prosedur Qaydaları" adlı sənədinin 9 (a) bəndinə uyğun olaraq bütün üzv ölkələrə müraciət edərək 30 gün müddətində, yəni iyunun 27-nə qədər təşəbbüsə dair münasibət bildirilməsini xahiş edib.

Qaydalara əsasən, BMT-yə üzv ölkələrin çox hissəsi (97 ölkə kifayətdir) təşəbbüsü dəstəklədiyi təqdirdə, xüsusi sessiya təşkil olunmalıdır. Azərbaycan tərəfində olan rəsmi məlumatlara görə, sözügedən müddətin bitməsinə qədər 130-dək ölkə təşəbbüsə dəstək verdikləri barədə Baş katibin ofisini məlumatlandırıb.

Hikmət Hacıyev qeyd edib ki, BMT-nin 130-dək üzv dövləti tərəfindən Qoşulmama Hərəkatının sədri statusunda Prezident İlham Əliyevin Baş Assambleyanın xüsusi sessiyasının keçirilməsi barədə təşəbbüsünün dəstəklənməsi beynəlxalq ictimaiyyət tərəfindən ölkəmizə olan böyük etimadın növbəti göstəricisidir.

Təşəbbüsü dəstəkləyən ölkələr dünyanın bütün regionlarını əhatə edir. Onlar arasında BMT Təhlükəsizlik Şurasının daimi üzvlərindən tutmuş, kiçik ada ölkələrinə qədər var. Dövlətlər tərəfindən bu məsələ ilə əlaqədar BMT Baş katibinə ünvanlanan məktublarda Prezident İlham Əliyevin Baş Assambleyanın xüsusi sessiyasının keçirilməsi ilə bağlı təşəbbüsünün vaxtında irəli sürülmüş və çox ehtiyac duyulan təşəbbüs olduğu vurğulanır.

"Azərbaycanın təşəbbüsünü dəstəkləyən bütün ölkələrə öz təşəkkürümüzü bildiririk. Hesab edirik ki, bununla həmin ölkələr BMT Nizamnaməsinə, çoxtərəfli əməkdaşlığa, multilateralizmə sadiqliklərini bir daha əyani olaraq nümayiş etdirdilər", - deyən Hikmət Hacıyev bildirib ki, yaxın günlərdə BMT Baş katibi tərəfindən üzv dövlətlərə rəsmi qaydada məlumat verilməsi gözlənilir. Azərbaycan tərəfi ümid edir ki, xüsusi sessiya mümkün qədər tez bir zamanda təşkil olunacaq.

Prezident İlham Əliyevin irəli sürdüyü və Qoşulmama Hərəkatına üzv ölkələrin müdafiə etdiyi təşəbbüs dünya dövlətlərinin əksəriyyəti tərəfindən qəbul edildiyi üçün xüsusi sessiyanın keçirilməsi artıq təkcə həmin ölkələrin deyil, BMT-yə üzv olan bütün dövlətlərin ümumi məsələsinə çevrilib.

Azərbaycan Respublikası BMT Baş Assambleyasının pandemiyaya qarşı mübarizə ilə bağlı dövlət və hökumət başçıları səviyyəsində videokonfrans vasitəsilə xüsusi sessiyasının təşkil olunmasına dair formatın və modallıqların müəyyənləşdirilməsi, xüsusi sessiyanın sonunda nəticələrin əldə edilməsi üçün bütün üzv ölkələrlə əməkdaşlığa hazırdır. İnanırıq ki, məsləhətləşmələr zamanı bütün üzv ölkələr maksimum çeviklik nümayiş etdirəcəklər.

Prezidentin köməkçisi deyib: "Əminik ki, xüsusi sessiya pandemiya ilə mübarizədə beynəlxalq ictimaiyyətin tam səfərbər edilməsinə şərait yaradacaq və bu qlobal təhdidə qarşı qlobal cavabın tapılmasına öz müsbət töhfəsini verəcək. COVID-19 pandemiyasının davam etməsi bir daha onu göstərir ki, dünya ölkələrinin dövlət və hökumət başçıları səviyyəsində dünya parlamenti adlandırılan BMT Baş Assambleyasının xüsusi sessiyası çərçivəsində təcili və təxirə salınmadan bir araya gəlməsinə, planetimizi bürüyən COVID-19 bəlasından çıxış yollarını müzakirə etməsinə və həll yollarının tapılmasına böyük ehtiyac və tələbat var. Azərbaycan Respublikası Prezident İlham Əliyevin rəhbərliyi ilə Qoşulmama Hərəkatında sədrliyi dönəmində bundan sonra da multilateralizmə, dünya ölkələrinin ümumi təhdidlər qarşısında birləşməsinə və qlobal həmrəyliyin gücləndirilməsinə yönəlmiş fəaliyyətini davam etdirəcək".

# Prezident İlham Əliyevin təşəbbüsü və beynəlxalq əməkdaşlığın yeni imkanları

Dünyada tüğyan edən koronavirus pandemiyasının beynəlxalq əməkdaşlığın miqyas və intensivliyinə mənfi təsir göstərməsi beynəlxalq icmanın həyat ritminin davam etdirilməsi istiqamətində yeni formaların axtarılıb tapılmasını obyektiv zərurətə çevirib. Bu mənada Azərbaycanın geniş vüsət almış beynəlxalq təşəbbüslərinin COVID-19 pandemiyası dövründə daha da artması diqqəti cəlb etməyə bilməz. Çox müxtəlif sahələrdə regional və beynəlxalq təşəbbüslərin müəllifi olan Azərbaycan pandemiya dövründə yeni və müasir formatlarda beynəlxalq təşəbbüskarlığı ilə seçilməkdədir.



Cari ilin aprel və may aylarında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə pandemiyaya qarşı mübarizədə regional və beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi imkanlarının Türk Şurası və Qoşulmama Hərəkatı çərçivəsində videokonfrans formatında müzakirə edilməsi bütün dünya miqyasında böyük rezonans doğurdu. Azərbaycan Prezidentinin təşəbbüsü əsasında təşkil edilən həmin müzakirələrin COVİD-19 pandemiyasına qarşı mübarizədə beynəlxalq həmrəyliyin və əməkdaşlığın genişləndirilməsinə diqqətin artırılmasında mühüm rol oynaması xüsusilə vurğulanmağa layiqdir.

Elə bunun nəticəsidir ki, Qoşulmama Hərəkatına üzv olan dövlətlər tərəfindən Prezident İlham Əliyevin təşəbbüsü yüksək qiymətləndirilmiş və koronavirus pandemiyası ilə mübarizədə qlobal həmrəylik və beynəlxalq əməkdaşlıq imkanlarının müzakirə edilməsinin Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının gündəliyinə çıxarılması məqsədəuyğun hesab edilmişdir. Beləliklə, hazırda Qoşulmama Hərəkatının sədri olan Azərbaycan Prezidentinin təşəbbüsü əsasında BMT Baş Assambleyasının koronavirus pandemiyasına qarşı mübarizədə beynəlxalq əməkdaşlığın gücləndirilməsinə həsr olunmuş xüsusi sessiyasının keçirilməsi barədə tarixi qərar qəbul edilmişdir. Qərarın qəbul edilməsinə dünyanın 130 dövləti tərəfindən müsbət rəy bildirilməsi problemin aktuallığı ilə yanaşı, Prezident İlham Əliyevin təşəbbüsünə yüksək diqqətin təzahürü hesab edilməlidir.

Azərbaycan Respublikasının Prezidentinin COVID-19 pandemiyasına qarşı beynəlxalq əməkdaşlığın gücləndirilməsi təşəbbüsü müasir şəraitdə qlobal həmrəyliyin və əməkdaşlığın yeni imkanlarının dəyərləndirilməsi baxımından müstəsna əhəmiyyət kəsb edir. Sübut etməyə ehtiyac yoxdur ki, ayrı-ayrı ölkələr arasında fikir ayrılıqlarının dərinləşməsi, qlobal xarakter kəsb edən problemlər ətrafında vahid mövqe formalaşdırmağın çətinləşməsi kimi meyillərin müşahidə olunduğu bir zamanda bütün dünyada ən ciddi təhdidə çevrilən COVID-19-a qarşı birgə mübarizə qlobal etimadın və əməkdaşlığın möhkəmləndirilməsində unikal fürsətdir. Prezident İlham Əliyevin sözügedən təşəbbüsü irəli sürməkdə məqsədi də məhz dünya dövlətlərini və BMT-ni bu unikal fürsətdən faydalanmağa, hamıya eyni dərəcədə təhlükə olan ümumi bəlaya qarşı səyləri birləşdirməyə səsləməkdən ibarətdir. COVID-19 kimi amansız virusa qarşı mübarizədə dövlətlərin çoxunun birgə mübarizə əvəzinə özünütəcridə meyilli olması, qlobal təşəbbüs göstərilməməsi, dünyanın ən nüfuzlu beynəlxalq təşkilatının problemə yetərincə diqqət yetirə bilməməsi təşəbbüsün aktuallığını və əhəmiyyətini qat-qat artırır.

Azərbaycan Respublikasının Prezidentinin təşəbbüsü ilə BMT Baş Assambleyasının videokonfrans formasında xüsusi sessiyasının çağırılması barədə qərarının qəbul edilməsi ölkəmizin və onun Prezidentinin dünya birliyində hörmət və nüfuzunun bariz ifadəsi sayılmalıdır. Azərbaycanın artan əhəmiyyəti və beynəlxalq iştirakçılığı onu beynəlxalq icmanın ən fəal və çevik iştirakçılarından biri kimi tanıtmışdır. Dəfələrlə Azərbaycan Prezidentinin regional və beynəlxalq əhəmiyyət kəsb edən təşəbbüslərinin beynəlxalq formatlarda müzakirə predmetinə çevrilməsinin, bir sıra hallarda isə xüsusi toplantıların çağırılmasına səbəb olmasının şahidi olmuşuq.

Bu xüsusda Prezident İlham Əliyevin beynəlxalq miqyaslı siyasi lider kimi statusunun getdikcə yüksəlməsi ayrıca qeyd edilməlidir. Onun təşəbbüslərinin, müxtəlif beynəlxalq formatlarda səsləndirdiyi çağırışların mühüm əhəmiyyət kəsb edən beynəlxalq qərarların əsasını təşkil etməsinin davamlı xarakter alması diqqəti cəlb etməyə bilməz. İlham Əliyev bir çox mötəbər beynəlxalq tədbirlərin arzuolunan və xüsusi hörmətli iştirakçısı sayılmaqdadır. Heç şübhəsiz, onun beynəlxalq miqyasda yüksək nüfuzlu lider imici Azərbaycanın diplomatik uğur və nailiyyətlərinin əvəzolunmaz resursudur.

Azərbaycanın beynəlxalq həmrəylik sahəsində hər bir təşəbbüsü, o cümlədən ümumdünya miqyasında fəlakətə çevrilmiş koronavirus pandemiyasına qarşı mübarizə sahəsində əməkdaşlığın əlaqələndirilməsi məqsədilə BMT Baş Assambleyasının xüsusi sessiyasının çağırılması ilə əlaqədar təşəbbüsü ölkəmizin beynəlxalq əməkdaşlığa açıq, tolerant, demokratik, özünü dünya birliyinin bir hissəsi kimi dərk edən dövlət olmasından xəbər verir. Pandemiya dövründə Azərbaycan bir daha beynəlxalq həmrəyliyə və əməkdaşlığa sədaqətin bariz nümunələrini göstərdi. Azərbaycanın COVID-19-a qarşı mübarizədə Ümumdünya Səhiyyə Təşkilatına könüllü ianə ayırması, 30-dan çox ölkəyə humanitar yardım göndərməsi bu fikirlərin əyani təsdiqidir. Ölkəmiz bir daha sübuta yetirdi ki, dünya birliyi üçün əhəmiyyət kəsb edən heç nə ona yad deyil. Sülh, əmin-amanlıq, təhlükəsizlik, separatizmə və terrorizmə qarşı barışmazlıq, dövlətlərin ərazi bütövlüyünə hörmət, ədalət və bərabərlik kimi bəşəri dəyərlərə dərindən sədaqət Azərbaycan dövlətinin xarici siyasət sahəsində, beynəlxalq münasibətlər müstəvisində fəaliyyətinin fundamental prinsipləridir. Dünya birliyində bir sıra hallarda qarşılıqlı etimadın və həmrəyliyin çatışmadığı indiki dövrdə sadalanan həmin prinsiplər xüsusi əhəmiyyət kəsb edir. Məhz həmin prinsiplərə inam dövlətimizin beynəlxalq mövqeyini möhkəmləndirir, onun diplomatik nailiyyətlərinin fundamentini təşkil edir, Azərbaycanın beynəlxalq hüquq və dəstəkdən faydalanmaq imkanlarını qat-qat gücləndirir.

İnanırıq ki, Prezident İlham Əliyevin yeni təşəbbüsü həm amansız COVID-19 pandemiyasına qarşı beynəlxalq mübarizənin daha səmərəli şəkildə təşkil edilməsində, həm də qlobal miqyasda əməkdaşlıq və həmrəyliyin möhkəmləndirilməsində yeni imkanlar yaradacaq. Bu təşəbbüs eyni zamanda, diplomatiya tariximizə ümumdünya problemlərinin həllinə Azərbaycanın yeni və əhəmiyyətli töhfəsi kimi daxil olacaq.

***Əli ƏHMƏDOV,***
***Baş nazirin müavini,***
***Yeni Azərbaycan Partiyasının***
***sədr müavini-icra katibi***

# İlham Əliyevin təşəbbüsü ilə bu dəfə BMT Baş Assambleyası toplanacaq

*Əvvəli 1-ci səh.*

Bu tədbiri keçirməklə Azərbaycan bir daha təsdiq etdi ki, Qoşulmama Hərəkatına sədrliyi öz üzərinə götürərkən beynəlxalq arenada üzv ölkələrin maraqlarının müdafiə edilməsi üçün əməli addımlar atacağına, həmrəyliyin gücləndirilməsinə və qarşılıqlı dəstəyi rəhbər tutacağına dair vədlərinə qətiyyətlə əməl edir. Eyni zamanda Zirvə görüşü göstərdi ki, ölkəmiz koronavirus pandemiyası ilə bağlı formalaşan yeni reallıqlara, yaranmış vəziyyətə çevik və adekvat reaksiya verir. Ən əsası isə Zirvə görüşü koronavirusla qlobal mübarizənin daha da güclənməsinə təkan verəcək. Prezident İlham Əliyev Zirvə görüşündə yekun nitqində bu barədə deyib: *"Qoşulmama Hərəkatına üzv ölkələrin bir-birinin problemlərini anlayışla qarşılaması, həmrəylik nümayiş etdirməsi və çoxtərəfli əməkdaşlığa üstünlük verməsi böyük əhəmiyyət kəsb edir. Qlobal pandemiya şəraitində ölkələr və beynəlxalq təşkilatlar arasında həmrəylik və əməkdaşlıq xüsusilə aktualdır. Əminəm ki, bu gün dövlət və hökumət başçıları, beynəlxalq təşkilatların rəhbərləri tərəfindən edilən çıxışlarda səslənən dəyərli fikirlər və təkliflər koronavirus xəstəliyinə qarşı bizim birgə mübarizəmizə töhfə verəcəkdir".*

Onu da qeyd edək ki, Azərbaycanın COVID-19-a qarşı mübarizədə göstərdiyi qlobal həmrəylik nümunəsi yalnız beynəlxalq tədbirlərin keçirilməsi ilə yekunlaşmadı. Belə ki, respublikamız Ümumdünya Səhiyyə Təşkilatına iki dəfə könüllü ianə ayırmaqla, 30-dan artıq dövlətə humanitar yardım etməklə beynəlxalq həmrəyliyə əməli töhfələr verdi.

## Yüksək beynəlxalq nüfuzun növbəti təsdiqi

BMT Baş Assambleyası nizamnaməsinə əsasən ehtiyac duyulduğu təqdirdə xüsusi sessiyalar keçirə bilər. Belə sessiyalar BMT Təhlükəsizlik Şurasının və ya BMT-yə üzv ölkələrin çox hissəsinin müraciəti əsasında Baş katib tərəfindən çağırılır. BMT yaranandan indiyə qədər Baş Assambleyanın qlobal problemlərlə bağlı məhdud sayda xüsusi sessiyaları çağırılıb.

COVID-19-un qlobal problem olduğunu nəzərə alaraq Prezident İlham Əliyev Qoşulamama Hərəkatının onlayn Zirvə görüşündə çıxışı zamanı qlobal həmrəyliyin nümunəsi kimi pandemiya ilə mübarizə məqsədilə BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində videokonfrans vasitəsilə xüsusi sessiyasının keçirilməsi təklifi ilə çıxış etmişdi.

Zirvə görüşündən sonra Azərbaycan Prezidentinin bu təklifi Qoşulmama Hərəkatının üzv ölkələri arasında razılaşdırılıb. Bundan sonra Qoşulmama Hərəkatının sədri Prezident İlham Əliyev üzv ölkələr adından BMT Baş Assambleyasının təklifi ilə BMT Baş katibi Antonio Quterreşə müraciət edib.

Öz növbəsində BMT Baş katibi mayın 28-də BMT Baş Assambleyasının "Prosedur Qaydaları"na əsasən üzv ölkələrə müraciət edərək 30 gün müddətində təşəbbüsə dair münasibət bildirilməsini xahiş etmişdir. Qaydalara əsasən, BMT üzvü olan ölkələrin çox hissəsi təşəbbüsə dəstək verdiyi təqdirdə, xüsusi sessiya təşkil olunmalıdır. Müddətin bitməsinə artıq 130-dan çox ölkə Azərbaycan Prezidentinin təşəbbüsünə dəstək verdiklərini bildiriblər.

Təşəbbüsə qarşı çıxış edən yeganə dövlət isə Ermənistan olmuşdur. Bütün dünya COVID-19-a qarşı mübarizədə qlobal həmrəyliyin vacibliyini vurğuladığı halda, Ermənistan qlobal xarakter daşıyan bu təşəbbüsə qarşı çıxış etməklə BMT sistemində və dünya dövlətləri arasında özünü rüsvay etdi. Bütün dünya bir daha Ermənistanın əsl irticaçı mahiyyətinin şahidi oldu.

BMT-nin 130-dan çox üzv üzv dövləti tərəfindən Qoşulmama Hərəkatının sədri statusunda Prezident İlham Əliyevin BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsi barədə təşəbbüsünün dəstəklənməsi dövlət başçısının yüksək beynəlxalq nüfuzunun növbəti təcəssümüdür. Bu təşəbbüsün dəstəklənməsi həm də onu göstərir ki, İlham Əliyev Qoşulmama Hərəkatının sədri kimi qlobal səviyyədə özünün liderlik missiyasını qətiyyətlə və müvəffəqiyyətlə həyata keçirir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

Vətəndaşlar dövlət başçısına minnətdarlıq edirlər

# «Sizin uğurlu siyasətiniz sayəsində Azərbaycan dünyanın nüfuzlu ölkələrindən birinə çevrilib»

Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlıq məktubları ünvanlanmaqda davam edir. Respublikamızın bütün guşələrindən vətəndaşlar dövlət başçısının diqqət və qayğısından razılıqlarını ifadə edirlər.



AZƏRTAC Prezidentin saytına istinadla minnətdarlıq məktublarının daha bir neçəsini təqdim edir.

Bakı şəhərinin Nəsimi rayonundan professor **Adilə Abasova** yazır: "Əziz və möhtərəm cənab Prezident, mənə göstərdiyiniz son dərəcə böyük diqqətə və qayğıya görə Sizə minnətdarlığımı ifadə etmək üçün söz tapa bilmirəm. Dövlətimizin yüksək mükafatlarından olan 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməyim mənə o qədər böyük bir sevinc bəxş edib ki, özümü dünyanın ən xoşbəxt insanı hiss edirəm. Mənim həyatda amalım həmişə Vətənə xidmət olub. Ötən əsrin 90-cı illərinin əvvəllərində qəlbimin səsini dinləyərək Moskvada elmi fəaliyyətimi, radiasiya problemləri sahəsində araşdırmalar aparan laboratoriya müdiri vəzifəsini tərk edib Azərbaycana dönmüşəm. Ulu Öndər Heydər Əliyevin etimadı ilə mənə Azərbaycan Respublikasının Milli Məclisində yüksək vəzifə həvalə edilib. Taleyimdən çox razıyam ki, parlament Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri kimi ölkəmizin qanunvericilik bazasının inkişafında mənim də xidmətlərim olub. Əziz və möhtərəm cənab Prezident, Azərbaycan xalqı xoşbəxtdir ki, Sizin kimi rəhbəri var. Sizin dərin zəkanız, müdrikliyiniz, alicənablığınız xalqımızın həyatını nurlandırır, onu gözəl gələcəyə aparır. Azərbaycanın işıqlı günləri Ulu Öndər Heydər Əliyevin davamçısı kimi Sizin həyata keçirdiyiniz uzaqgörən siyasətlə bağlıdır. Allah Sizi və ailənizi Azərbaycanımız üçün qorusun!"

Hacıqabul rayonunun Kolanı kəndindən **Müşfiq Nağıyev:** "Möhtərəm cənab Prezident, bir gənc müəllim olaraq Azərbaycanın bu günü və sabahı üçün gördüyünüz işləri yaxından izləyir və alqışlayıram. Pandemiya ilə mübarizə sahəsində gördüyünüz işlər göz qabağındadır. Əvvəlki illərdə səhiyyə sisteminin maddi-texniki bazasının möhkəmləndirilməsi, çoxlu sayda tibb ocaqlarının ərsəyə gətirilməsi, modul tipli xəstəxanaların operativ olaraq inşa edilib istifadəyə verilməsi harayımıza yetdi. Belə olmasaydı, xəstəliyə yoluxan insanları yerləşdirməkdə çətinlik çəkər, görülən tədbirlərin səmərəliliyi azalardı. Sizin uğurlu siyasətiniz sayəsində Azərbaycan nəinki regionun, hətta dünyanın nüfuzlu ölkələrindən birinə çevrilib. Bu gün bir çox ölkələr Azərbaycanı etibarlı tərəfdaş kimi qəbul edir, dünyanın dörd bir yanından insanlar ölkəmizlə yaxından maraqlanırlar. Sizə hər zaman böyük ehtiyacımız var, cənab Prezident!"

Ağcabədi rayonunun Kəbirli kəndindən **Fazil Orucov:** "Möhtərəm cənab Prezident, iyun ayının 3-də Ağcabədi rayonuna səfəriniz ailəmizin böyük sevinc və iftixarına səbəb oldu. Səfərdən dərhal sonra Ağcabədi rayonunun 14 min əhalinin yaşadığı 4 yaşayış məntəqəsinə yol çəkilməsi və Sarıcalı kəndində 360 yerlik məktəb binasının tikilməsinə dair verdiyiniz sərəncamlar cəbhə bölgəsi və Qarabağ torpağı olan Ağcabədi rayonuna diqqət və qayğınızın təzahürüdür. Cənab Prezident, biz hər zaman Sizi dəstəkləmişik və Sizinlə fəxr etmişik, bundan sonra da belə olacaq. Bizim Sizi dəstəkləməyimizin səbəbi xalqımızın rifahının yaxşılaşdırılması üçün yürütdüyünüz ardıcıl siyasətdir. Bunu yalnız Vətən xainləri görməyə bilərlər. Dünyada tüğyan edən koronavirusla əlaqədar xalqımızın sağlamlığının qorunması üçün verdiyiniz qərarlar biz vətəndaşlara olan sevginizin bariz nümunəsidir. Mən fəxr edirəm ki, Sizin kimi uzaqgörən Prezidentimiz var. Allah Sizi qorusun, Azərbaycan xalqına çox görməsin!"

Füzuli rayonunun Qayıdış-7 qəsəbəsindən şagird **Vəliyar Oruclu:** "Hörmətli cənab Prezident, mən məcburi köçkün övladı olaraq Sizə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya məcburi köçkünlər üçün yaratdığınız şəraitə görə təşəkkür edirəm. Bu gün dünyanı bürüyən koronavirus pandemiyasının tüğyan etdiyi bir vaxtda Sizin gördüyünüz tədbirlər ölkəmizdə insanların bu virusa az yoluxmasına və ölüm sayının Avropa ölkələrinə nisbətən daha az olmasına gətirib çıxardı. Sizin yüksək idarəetmə bacarığınız nəticəsində bu virusa yoluxmaların sayı aşağı həddə saxlanılmaqdadır. Cənab Prezident, tutduğunuz bu yolda Sizə yeni uğurlar arzulayıram. Tanrı Sizi qorusun!"

Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunun Yuxarı Əndəmic kəndindən **Mütəllim Mütəllimzadə:** "Möhtərəm cənab Prezident, dünya ölkələrini təşvişə salan, dövlətləri müflisləşmə həddinə qədər gətirib çıxaran COVID-19 pandemiyasının ölkəmizdə yarada biləcəyi fəsadların qarşısının böyük ölçüdə alınması Sizin uzaqgörənliyinizin, yüksək idarəçilik qabiliyyətinizin, yeritdiyiniz düzgün siyasətin nəticəsidir. Bu sınaq ölkəmizdə xalqın dövlətə olan inamını, güvənini bir daha sübut etdi. Bu hadisələrin baş verdiyi dövrdə xalqımızın rifahı naminə görülən tədbirlər, atılan addımlar xalqımız tərəfindən yüksək qiymətləndirildi. Ümummilli Lider Heydər Əliyev kimi, Siz də Azərbaycan xalqını təhlükəli vəziyyətlərdən qəhrəmancasına xilas edirsiniz. Koronavirusa yoluxmanın aşkar olunduğu ilk vaxtdan etibarən xalqımızın sağlamlığını hər şeydən üstün tutmağınız xalqa verdiyiniz dəyərin təzahürüdür. Eyni zamanda karantin qaydalarına xalqımızın mütləq əksəriyyətinin əməl etməsi xalqın dövlətə bağlılığının göstəricisidir. Xalqımızın bu çətin sınaqdan xilas olunması üçün gördüyünüz tədbirlərə görə Sizə öz adımdan, ailəmin adından təşəkkür edirəm, cənab Prezident. Əzəli torpaqlarımızın qaytarılması uğrunda apardığınız mübarizədə Sizin siyasətinizi hər zaman dəstəkləyir, dövlətimiz, dövlətçiliyimiz, xalqımız uğrunda hər bir tapşırığa hazır olduğumu bildirirəm".

Tərtər rayonundan **Etibar Əhmədov:** "Möhtərəm cənab Prezident, Sizin koronavirus pandemiyasının qarşısının alınması üçün atdığınız qabaqlayıcı addımlar tam əminliklə deməyə əsas verir ki, bu bəladan az itkilərlə çıxacağıq. Cənab Prezident, bizim sağlamlığımızın qeydinə qaldığınız üçün Sizə minnətdarlığımızı bildiririk. Belə bir çətin vaxtda rayonumuza səfər etdiniz, möhtəşəm Olimpiya İdman Kompleksinin, Dövlət Rəmzləri Muzeyinin, Tərtər Elektrik Yarımstansiyasının, 6 yaşayış məntəqəsini birləşdirən, uzunluğu 21,5 kilometr olan Buruc-Güləbatlı-Xoruzlu-Kəbirli-Bayandurlu-Qaradağlı yolunun açılışlarını etdiniz. Biz tərtərlilər haqqında dediyiniz "Mən Aprel döyüşlərindən sonra burada olarkən tərtərlilərin mərdliyini bir daha gördüm. Gördüm ki, onlar öz torpağından heç yerə gedən deyillər. Gördüm ki, bütün təhlükələrə baxmayaraq, öz torpaqlarında möhkəm dayanıblar" sözləri bizim vətəndaş məsuliyyətimizi, vətənpərvərliyimizi daha da artırıb. Cənab Prezident, Tərtər rayonu, onun sakinləri haqqında dediyiniz xoş sözlərə, insanlarımıza verdiyiniz yüksək dəyərə görə Sizə minnətdarıq. Tərtərlilər Sizin apardığınız daxili və xarici siyasəti daim dəstəkləyirlər, Vətənimizə və Sizə sadiqdirlər".

Bakının Suraxanı rayonunun Hövsan qəsəbəsindən **Nurəddin Abdullayev:** "Hörmətli cənab Prezident, mən 1979-cu ildə hemofiliya xəstəliyi ilə dünyaya gəlmişəm. Bu xəstəlik səbəbindən çox ağrı-acılarım olub. Nəticədə 1-ci qrup əlil olmuşam. 2004-cü ildən ailəliyəm, iki övladım var. Bu məktubu Sizə yazmaqda məqsədim dərin minnətdarlıq hissimi bildirməkdir. Mən hər zaman ən çətin anımda dövlətin qayğısını hiss etmişəm. Bunun üçün Sizə və Mehriban xanıma borcluyam. Bu gün istər hemofiliya sahəsində, istərsə də sosial rifahımız üçün imzalanan bir çox sərəncamların bizim həyatımıza təsirini duyuruq. Cənab Prezident, 20 ildən çoxdur ki, reabilitasiya məmulatlarından istifadə edirəm. Hazırkı pandemiya dövründə Protez-Ortopedik Bərpa Mərkəzində zənglərə operativ cavab verilməsi, elektron qaydada sənədlərin qəbulu, ünvanlarda xidmətlərin göstərilməsi, reabilitasiya vasitələrinin yaşayış ünvanlarına gətirilməsi həyata keçirilir. Bu bizə olan diqqət və qayğının təzahürüdür. Bütün bunlar üçün Sizə bir daha dərin minnətdarlığımı bildirirəm. Bu çətin anlarda belə isti münasibət və ən əsası xüsusi diqqət biz əlilləri sevindirir. Çox sağ olun".

# Yenidən qurulan «Azərbaycan» İES-in dayanıqlılığı, təhlükəsizliyi və səmərəliliyi artıb

*Əvvəli 1-ci səh.*

Prezident İlham Əliyev "Azərbaycan" İES əsaslı yenidənqurmadan sonra istifadəyə verilərkən həmin dövrü xatırladaraq demişdir: "O vaxt mərkəzləşdirilmiş fondlardan respublikaya vəsait cəlb etmək çox böyük çətinliklərlə başa gəlirdi. Nəzərə alsaq ki, Heydər Əliyev yeni rəhbər idi və onun dərhal belə bir təşəbbüslə çıxış etməsi sovet rəhbərliyində bir çoxlarını təəccübləndirmişdi. Ancaq bütün bunlara baxmayaraq, onun fəaliyyəti və yorulmaz səyləri nəticəsində 1971-ci ildə bu stansiyanın tikintisi haqqında qərar qəbul edildi, Azərbaycana mərkəzləşdirilmiş fondlardan böyük vəsait qoyulmağa və stansiyanın tikilməsinə başlandı. Ulu Öndər hələ Azərbaycanda rəhbər olan zaman stansiyanın birinci bloku istismara verildi - 1981-ci ildə. Sonra Heydər Əliyev Moskvada Siyasi Büroda fəaliyyətə başlayanda və Nazirlər Sovetinin birinci müavini vəzifəsində çalışanda daim gözü Azərbaycanın üstündə idi. Heydər Əliyev bu stansiyanın tikintisinə xüsusi əhəmiyyət verirdi və onun fəaliyyəti nəticəsində qalan 7 blok da inşa edilmişdi. İndi təsəvvür etmək mümkün deyil ki, əgər bu stansiya o vaxt tikilməsəydi, biz müstəqillik dövründə hansı problemlərlə üzləşə bilərdik".

"Azərbaycan" İES uzun illər ölkənin elektrik enerjisinə tələbatının ödənilməsində birinciliyini qoruyub saxlamışdır. Lakin məlum olduğu kimi, 2018-ci il iyulun 3-də stansiyada qəza baş vermişdir.

Prezident İlham Əliyevin göstərişinə əsasən, eləcə də dövlət başçısının diqqət və qayğısı sayəsində "Azərbaycan" İES qısa müddətdə tamamilə yenidən qurulmuş, 8 blokun hamısı işlək vəziyyətə gətirilmişdir. Obyektin 2400 meqavat generasiya gücü bərpa edilmişdir. Qəza baş verən yarımstansiyalar yenidən qurulmuş, müasir idarəetmə mərkəzi yaradılmışdır. Beləliklə, stansiyanın ömrü ən azı 20-30 il, bəlkə də 50 il uzadılmışdır.

Onu da qeyd edək ki, stansiyada yenidənqurma işləri aparılarkən ölkəyə elektrik verilişi bir dəqiqə də olsun dayanmamışdır. Bütün işlər paralel olaraq yerinə yetirilmişdir.

Mingəçevir şəhərində yenidən qurulmuş "Azərbaycan" İES-in açılış mərasimində Prezident İlham Əliyev bu barədə demişdir: "Hər bir ölkənin energetika sistemi onun döyünən ürəyidir, əsas motorudur. Bu olmasa, heç nə olan deyil. Bu olmasa, heç bir inkişafdan, heç bir investisiya qoyuluşundan söhbət gedə bilməz. Ona görə enerji olmayan yerdə inkişaf yoxdur... Ona görə bu stansiyanın xüsusi əhəmiyyəti var. İki il bundan əvvəl burada qəza baş verəndə, əlbəttə, bunun ölkəmizə nə qədər böyük zərbə vurduğunu hər kəs gördü. Göstəriş vermişdim ki, bu İstilik Elektrik Stansiyasının generasiya gücləri qısa müddət ərzində yenidən yaradılmalıdır. O vaxt 800 meqavat generasiya gücü itirilmişdi, - bu stansiya cəmi 1600 meqavatla işləyirdi. Generasiya gücü yavaş-yavaş itirilirdi və belə bir fikir var idi ki, bunu bağlamaq, yaxud da söküb yenidən tikmək lazımdır, təmir etmək mümkün deyil. Bu 2400 meqavat gücü yenidən bərpa etmək neçəyə başa gələr, bunu hamı yaxşı bilir - milyardlarla dollara, milyardlarla. Ona görə mən "Azərenerji"nin bu sahədə fəaliyyətini xüsusi qiymətləndirirəm ki, stansiya cəmi 2 ildən az bir müddətdə yenidən quruldu, səkkiz blokun səkkizi də işlək vəziyyətdədir. 2400 meqavat generasiya gücü bərpa edildi".

Azərbaycan bundan sonra da enerji təminatı sahəsində heç kimdən asılı olmayacaq. Çünki elektrik enerjisi sistemi bax, beləcə getdikcə daha da gücləndirilir və təkmilləşdirilir. Elektrik xətləri yenilənir, generasiya gücləri yaradılır, şəbəkə qurulur, yarımstansiyalar tikilir, bütün qonşu ölkələrlə yüksəkgərginlikli xətlər var. Son 16 il ərzində ölkəmizdə 30 elektrik stansiyası tikilmişdir. Təkcə son illərdə tikilmiş təxminən 800 meqavat gücündə olan "Cənub", 300 meqavatlıq "Səngəçal", 525 meqavatlıq "Sumqayıt", hər biri 400 meqavatlıq "Şimal-1" və "Şimal-2" stansiyalarını qeyd etmək kifayətdir.

Beləliklə, 1990-cı illərdə xaricdən elektrik enerjisi alan Azərbaycan bu gün onu 3 ölkəyə ixrac edir.

Yenidən qurulan "Azərbaycan" İES ölkəmizin elektrik enerjisi sisteminin gücünü daha da artırmışdır. Yenidənqurma işlərindən sonra stansiyanın qoyuluş gücü 2400 MVt-a çatdırılıb və 600 MVt itirilmiş güc bərpa olunub. Hazırda bu stansiya ölkənin elektrik enerjisinə olan tələbatının 40 faizini ödəyir. Burada istehsal edilən elektrik enerjisi respublikanın enerji sisteminə 330 və 500 kilovoltluq elektrik verilişi xətləri ilə ötürülür.

Bütün bunlar o deməkdir ki, "Azərbaycan" İES-in etibarlılığı artıb, dayanıqlılığı, təhlükəsizliyi və səmərəliliyi tam təmin olunub.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

Milli Məclisin iclasında

# Sanitariya-gigiyena və karantin rejimlərinin pozulmasına görə cərimələr artırıldı



İyunun 29-da Milli Məclisin növbədənkənar sessiyasının növbəti iclası keçirildi. Milli Məclisin Sədri Sahibə Qafarova bildirdi ki, gündəliyə 17 məsələ daxil edilib.

Spiker diqqətə çatdırdı ki, birinci məsələ İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Qeyd olundu ki, son vaxtlar ölkəmizdə koronavirus infeksiyasına tutulanların sayında xeyli artım baş verib. Bunun əsas səbəblərindən biri də epidemiya əleyhinə rejimin sanitariya-gigiyena və karantin rejimlərinin tələblərinə ciddi riayət edilməməsi, hətta bir sıra hallarda etinasızlıq göstərilməsidir. Bununla əlaqədar ictimaiyyətin, eləcə də, Milli Məclisin deputatlarının narahatlığını nəzərə alaraq, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsi tərəfindən İnzibati Xətalar Məcəlləsinə dəyişiklik edilməsi haqqında qanun layihəsi hazırlanıb. Layihədə infeksiyanın yayılmasına qarşı tədbirlərin səmərəliliyini artırmaq məqsədilə cərimə sanksiyalarının sərtləşdirilməsi nəzərdə tutulub.

Sahibə Qafarova bildirdi ki, qanun layihəsində yalnız rəqəm dəyişikliyi nəzərdə tutulduğuna görə "Normativ hüquqi aktlar haqqında" Konstitusiya qanununun tələblərinə görə layihə bir oxunuşda qəbul ediləcək.

Sonra parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov qanun layihəsi barədə ətraflı məlumat verdi. Bildirdi ki, qanun layihəsi məcəllənin 211.1, 211.2 və 211.3-cü maddələrində əksini tapmış inzibati tənbeh tədbiri növlərində cərimələrin miqdarının artırılmasını nəzərdə tutur. Belə ki, epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulmasına görə fiziki şəxslər iki yüz manatdan dörd yüz manatadək məbləğdə, vəzifəli şəxslər üç min manatdan dörd min manatadək məbləğdə cərimə edilir, yaxud işin hallarına görə, xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla, bir ayadək müddətə inzibati həbs tətbiq olunur, hüquqi şəxslər dörd min manatdan on min manatadək məbləğdə cərimə edilir.

Epidemiya əleyhinə rejim, sanitariya-gigiyena və karantin rejimləri dövründə fərdi qoruyucu vasitələrdən istifadə ilə bağlı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən tələblərin pozulmasına, habelə vəzifəli şəxslər və hüquqi şəxslər tərəfindən həmin tələblərin pozulmasının qarşısının alınmamasına görə fiziki şəxslər yüz manat məbləğində, vəzifəli şəxslər iki yüz manat məbləğində, hüquqi şəxslər dörd yüz manat məbləğində cərimə edilir.

Xətanın bir il ərzində təkrar törədilməsinə görə fiziki şəxslər iki yüz manat məbləğində, vəzifəli şəxslər dörd yüz manat məbləğində, hüquqi şəxslər səkkiz yüz manat məbləğində cərimə edilir.

Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov, Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov qanun layihəsi ilə bağlı fikirlərini açıqladılar. Ölkəmizdə koronavirus infeksiyası ilə mübarizə sahəsində həyata keçirilən genişmiqyaslı tədbirlərdən, dövlət tərəfindən vətəndaşlara göstərilən diqqət və qayğıdan danışdılar. Onlar karantin rejiminə riayət edilməsinin vacibliyini vurğuladılar. Müzakirələrdən sonra qanun layihəsi qəbul edildi.

İclasda "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi (üçüncü oxunuş) təqdim edildi. Regional məsələlər komitəsinin üzvü Kamran Bayramov bildirdi ki, dəyişikliklərdə bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqan tərəfindən bələdiyyələrin yol verdiyi pozuntularla yanaşı, onları yaradan səbəb və şəraitin aradan qaldırılması, bələdiyyə aktlarına 15 iş günü müddətində baxılması, inzibati nəzarət icraatı zamanı dövlət orqanları və qurumlarına sorğuların göndərilməsi və məlumatların alınması təklif olunur. Habelə bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın apardığı araşdırma zamanı bələdiyyələrin vəzifəli şəxslərindən, bələdiyyə qulluqçularından yazılı məlumatlar və arayışlar almaq hüququnun verilməsi nəzərdə tutulur. Bu dəyişikliklər orqanın fəaliyyətinin təkmilləşdirilməsi, inzibati nəzarət icraatının daha səmərəli, dolğun və hərtərəfli şəkildə həyata keçirilməsi üçün şərait yaradacaq. Qanun layihəsi üçüncü oxunuşda təsdiq edildi.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov "İcra məmurları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsi barədə məlumat verdi. Bildirildi ki, 2017-ci il 10 fevral tarixində Ədliyyə Nazirliyinin tərkibində Probasiya Xidməti yaradılıb. Bu xidmətin vəzifəsi cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan cəzaların icrasına nəzarəti təşkil etməkdən ibarətdir. Bu məqsədlə cərimə və islah işləri növlərində cəzaların, habelə hüquqi şəxslərə tətbiq edilən cərimə növündə cinayət-hüquqi tədbirlərin icrası ilə əlaqədar daxil olan vəsaitin müəyyən faizinin Ədliyyə Nazirliyinin hesabına köçürülməsi təklif olunur. Müvafiq dəyişiklik xidmət əməkdaşlarının maddi və sosial müdafiəsinin gücləndirilməsi, xidmətin maddi-texniki təminatının yaxşılaşdırılması üçün nəzərdə tutulub. Layihə üçüncü oxunuşda qəbul olundu.

Nizami Səfərov İnzibati Xətalar Məcəlləsinə dəyişiklik edilməsi haqqında (üçüncü oxunuş) qanun layihəsini də müzakirəyə təqdim etdi. Dəyişikliklər "Telekommunikasiya haqqında" qanuna əsasən, telekommunikasiya operatorları və provayderlər tərəfindən hüquq mühafizə orqanlarının sorğularına cavabların gecikdirilməsinə və tələb olunan məlumatların təqdim edilməməsinə görə tətbiq ediləcək cərimələrin məbləğini və inzibati məsuliyyət növlərini özündə ehtiva edir. Layihə üçüncü oxunuşda qəbul olundu.

Daha sonra Cəzaların İcrası, Cinayət və İnzibati Xətalar məcəllələrinə təklif edilən dəyişikliklərlə bağlı qanun layihələri də üçüncü oxunuşda təsdiq olundu. Dəyişikliklər Ədliyyə Nazirliyinin Probasiya xidmətinin daha geniş tətbiqi məqsədi ilə edilir. Belə ki, barəsində ictimai cəza və inzibati tənbeh qərarı çıxarılmış şəxslər də elektron nəzarət vasitəsi gəzdirəcək. Məhkəmə tərəfindən ictimai işlərə məhkum edilmiş şəxslərin üzərinə ictimai işlərin yerinə yetirildiyi yerlərdə elektron nəzarət vasitəsini gəzdirmək və həmin vasitənin işlək vəziyyətdə saxlanılması üçün ona xidmət etmək vəzifəsi qoyulur.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili "Telekommunikasiya haqqında" qanunda dəyişiklik edilməsi barədə layihəni üçüncü oxunuşda təqdim etdi. Bildirildi ki, qanunda "az" ölkə kodlu, yüksək səviyyəli domen adlarının tənzimlənməsinə dair müddəalar nəzərdə tutulub. Qanun layihəsi üçüncü oxunuşda təsdiq edildi.

İclasda qeyd edildi ki, gündəliyin növbəti iki məsələsi uyğunlaşdırma xarakteri daşıyır və bir oxunuşda qəbul ediləcək.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov Azərbaycan Respublikasının Cinayət-Prossesual Məcəlləsində, "Prokurorluq haqqında", "İcra məmurları haqqında", "Vəkillər və vəkillik fəaliyyəti haqqında", "Dövlət qulluğu haqqında", "İcra haqqında", "Azərbaycan Respublikasında dövlət dili haqqında", "Ələt azad iqtisadi zonası haqqında" və "Mediasiya haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim etdi. Diqqətə çatdırıldı ki, 2019-cu il 9 iyul tarixli 1632-VQD nömrəli qanunla "Məhkəmələr və hakimlər haqqında" qanuna dəyişikliklər edilərək inzibati-iqtisadi məhkəmələr inzibati məhkəmələr adlandırılıb, bununla əlaqədar bu məhkəmələrin baxdığı işlər sırasından iqtisadi mübahisələrə dair işlər çıxarılıb, eləcə də kommersiya məhkəmələri yaradılıb və birinci instansiya məhkəməsi kimi qanunla səlahiyyətlərinə aid edilmiş kommersiya mübahisələrinə dair işlərə baxılması bu məhkəmələrin səlahiyyətlərinə aid olunub. Layihə "İnzibati məhkəmələrin və kommersiya məhkəmələrinin təşkili və "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 9 iyul tarixli 1632-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 19 iyul tarixli 1325 nömrəli sərəncamının 5.4-cü bəndinin icrasını təmin etmək məqsədilə hazırlanıb. Qanun layihəsi səsə qoyularaq qəbul olundu.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Əli Məsimli "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi ilə bağlı məlumat verdi. Qeyd etdi ki, tikintidə dövlət nəzarətinin həyata keçirilməsinin spesifikliyini və bu məsələlərin Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsi və ona uyğun olaraq qəbul edilmiş normativ hüquqi aktlarla tənzimləndiyini nəzərə alaraq, "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" qanun bu sahədə yoxlamaların aparılması məsələlərini ehtiva edir. Təklif olunan qanun layihəsi tikintiyə dövlət nəzarətinin həyata keçirilməsi ilə əlaqədar yoxlamalara qeyd olunan qanunun 26-cı maddəsinin (məhsul nümunələrinin götürülməsi və onların tədqiqi ilə bağlı işlərin (xidmətlərin) dəyərinin ödənilməsi) tətbiqinə hüquqi əsaslar yaradır. Qanun layihəsi istehsal edilən və ya satılan (satış üçün nəzərdə tutulan) hər hansı inşaat məhsulunun və ya xammalın müəyyən edilmiş tələblərə uyğunluğunun yoxlanılması zamanı götürülən məhsul nümunələrinin dəyərinin ödənilməsi məsələlərini tənzimləməklə (götürülən məhsulun dəyərinin yoxlayıcının hesabına ödənilməklə), sahibkarların maraqlarının müdafiəsinə xidmət edir. Qanun layihəsi səsə qoyularaq qəbul edildi.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili bir zərfdə daxil olmuş növbəti dörd məsələ - Vergi Məcəlləsinə, "Notariat haqqında", "Sosial sığorta haqqında" və "Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında" qanunlara təklif olunan dəyişikliklər barədə (ikinci oxunuş) məlumat verdi. Bildirdi ki, bu dəyişikliklər elektron icra, elektron notariat və elektron məhkəmə informasiya sistemlərinin genişləndirilməsi və bu sistemlər arasında məlumat mübadiləsinin labüdlüyü ilə bağlıdır. Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul edildi.

Daha sonra qanunvericilik təşəbbüsü qaydasında bir məktubda daxil olmuş növbəti üç məsələyə baxıldı. Milli Məclis Sədrinin müavini, İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fəzail İbrahimli qanun layihələri barədə məlumat verdi. Bildirildi ki, "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında","Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" və "Qrant haqqında" qanunlara təklif edilən dəyişikliklər həm uyğunlaşdırma, həm də rəqəmsal texnologiyanın inkişafı nəticəsində elektron xidmətlərdən istifadənin daha da genişləndirilməsi, həmçinin "Elektron imza və elektron sənəd haqqında" qanuna uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının elektron sistemindən istifadə zamanı sənədlərin əldə edilməsinin asanlaşdırılması məqsədini daşıyır. Hər üç qanun layihəsi ayrı-ayrılıqda ikinci oxunuşda qəbul olundu.

Bununla da Milli Məclisin iclası başa çatdı.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***



# Azərbaycan böyük fəlakətdən qorundu

## Dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən çevik və zəruri tədbirlər ölkəmizdə pandemiyanın təsirlərini minimuma endirdi

Dünya koronavirus, COVID-19 pandemiyasının birinci mərhələsindən tam yaxa qurtarmamış, ikinci və daha təhlükəli dalğası ilə üzləşib. Ölkələr infeksiyaya qarşı mümkün effektiv tədbirləri tətbiq etsə də, COVID-19 yoxa çıxmaq bilmir. Kiçicik bir yumşalmanı fürsət bilərək, böyük yoluxma ocaqları çatmağı bacarır.

Xəstəliyin yeganə çarəsi ola biləcək vaksin və dərman müalicəsi isə hələlik yoxdur. İndi bəşəriyyətin xilası insanların tələb olunan qaydalara əməl edərək koronavirusa yoluxmaqdan qorunmasıdır.

Hazırda pandemiya ilə bağlı vəziyyətin heç də ürəkaçan ssenari üzrə getmədiyini Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) rəsmiləri də söyləyirlər.

Qurumun Avropa Regional Bürosunun direktoru Hans Kluqe məlumat verib ki, son iki həftə ərzində Avropanın 30 ölkəsində COVID-19-la bağlı məyusedici dinamika müşahidə edilib: “Ölkələrin 11-də virusun sürətlə yayılması epidemiyanın yenidən başlamasına səbəb ola bilər. Əgər prosesi dayandırmasaq, Avropa ölkələrinin səhiyyə sistemləri uçuruma yuvarlanacaq. Dövlətlər əvvəl tətbiq etdikləri məhdudiyyətləri aradan qaldırdıqları üçün xəstəliyin yenidən yayılması riski var. Bəzi Avropa ölkələrində bu risk artıq reallığa çevrilib”.

### Çox böyük problemlərdən sığortalandıq

Azərbaycanda da qlobal pandemiya ilə mübarizə davam etdirilir. Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə hələ virusun üzə çıxdığı ilk zamandan etibarən bütün sahələr üzrə çevik və zəruri addımlar atıldı. Dərhal və mərhələli şəkildə həyata keçirilən bu tədbirlər sayəsində ölkəmiz böyük fəlakətdən qorundu.

Pandemiyaya qarşı görülən qabaqlayıcı və məhdudlaşdırıcı tədbirlər Azərbaycanda yoluxma sürətini azaltdı, insan itkisi minimum sayda oldu.

Xüsusilə modul tipli xəstəxanaların qurulması koronavirusla mübarizəyə inanılmaz töhfə verdi. İstifadəyə verilən bu xəstəxanalar 200 çarpayılıqdır, müasir texnologiyalar əsasında quraşdırılıb. Artıq ikisi Bakıda, ikisi Sumqayıt və Gəncə şəhərlərində, biri isə Abşeron rayonunda olmaqla 5 xəstəxana istifadəyə verilib. Yaxın zamanlarda isə digər şəhərlərdə də bu tipli xəstəxanalar istifadəyə veriləcək və onların sayı 10-a çatdırılacaq.

Ümumiyyətlə, son illər ərzində Azərbaycanın hər bir yerində, o cümlədən Bakı şəhərində müasir xəstəxanalar tikilməsəydi, hazırda koronavirusla mübarizədə çox böyük problemlərlə üz-üzə qala bilərdik.

### İnfeksiyanın erkən aşkarlanması

Koronavirus infeksiyasının aparılan testlər sayəsində erkən aşkarlanması da effektiv vasitələrdən biridir. Bu sahədə də ölkəmiz lazımi addımları atıb. Koronavirusa yoluxma hallarının müəyyənləşdirilməsi üçün yeni, ən müasir standartlar səviyyəsində olan əlavə tibbi laboratoriyalar alınıb, diaqnostik alətlər və tibbi ləvazimatlar vaxtında ölkəyə gətirilərək tibb müəssisələrinə təhvil verilib.

Virusun diaqnostikası üçün tibb müəssisələrində dünyanın aparıcı şirkətlərinin istehsalı olan müasir laboratoriya sistemləri qurulub, onlar Avropa ölkələrinin buraxdığı testlərlə təchiz edilib.

Hazırda ölkədə testlərin aparılması üçün 23 laboratoriya fəaliyyət göstərir və adambaşına keçirilən testlərin sayına görə Azərbaycan dünya miqyasında qabaqcıl yerlərdədir.

### Məhdudlaşdırıcı tədbirlərə rəvac verən səbəblər

Görülən qabaqlayıcı tədbirlər sayəsində sağalanların sayı yoluxanların sayından çox olduğuna görə, may ayının əvvəlindən karantin qaydalarında mərhələli şəkildə yumşalmalara start verildi. Amma təəssüf ki, bu ərəfədə bəzi vətəndaşların koronavirusun tamamilə yox olması kimi yanlış düşüncələr və atdıqları məsuliyyətsiz addımlar yenidən məhdudlaşdırıcı tədbirlərə rəvac verdi. Ölkəmizdə gündəlik virusa yoluxma sayı 500-ün üzərinə qalxdı və bu dinamika mənfiyə doğru sürətlə irəliləməyə başladı. Buna görədir ki, hazırda yoluxma sayı çox olan bir çox şəhər və rayonlarımızda iki həftəlik xüsusi karantin rejimi tətbiq olunub.

Görülən bütün bu tədbirlərin əsas məqsədi yoluxmanın sürətini azaltmaq, yarada biləcəyi fəsadların qarşısını almaqdır.

Sərtləşdirilmiş rejimin müddəti isə vətəndaşların məsuliyyətli davranışından və koronavirusun yayılma sayından asılıdır.

### Karantin günlərində toy?

Təəssüf ki, vəziyyətin nə dərəcədə təhlükəli olmasını hələ də dərk etməyən şəxslər var. Onlar bütün tələblərə baxmayaraq qaydaları pozmaqda davam edirlər. Sosial məsafəni saxlamır, maskadan istifadə etmirlər.

Halbuki bu sadə qaydalara əməl edərək həm özlərini, həm də digərlərini koronavirus bəlasından qoruya bilərlər. Yoluxmanın sayı kəskin azalar, tibb işçilərimizin üzərinə düşən ağır yük yüngülləşər, elə biz də normal həyatımıza daha tez qayıdarıq.

Amma hələlik bu müsbət proqnozları verməyin tez olduğu da acı reallıqdır. Bəziləri dünyanı məhvə sürükləyən bəlanın varlığına dırnaqarası, şübhə ilə yanaşmaqda davam edirlər. Elələri olur ki, qapalı yerlərdə maska taxmırlar, yas mərasimlərində iştirak edirlər. Baxmayaraq ki, elə bir çox rayonlarda kütləvi yoluxmalar yas mərasimlərində iştirak səbəbindən yaranıb.

Ölkənin bu çətin günlərində şadyanalıq edib toy məclisi quranlar da tapıldı. Belə ki, Zərdab rayonunun Alıcanlı kəndində 25 nəfərə yaxın şəxs toplaşaraq, toy məclisi təşkil edib, bununla da xüsusi karantin qaydalarını kobud şəkildə pozublar.

Qlobal pandemiya ilə üz-üzə qaldığımız bu böhranlı günlərdə yaşanan təəssüfləndirici məqamlar, elə tətbiq olunan cərimələrin miqdarının artırılmasına, SMS icazə sistemində bir sıra icazələrin ləğv olunmasına da gətirib çıxardı.

### Nə həyatımızı təhlükəyə ataq, nə də cərimələnək...

Bəli, çox təəssüf, demək olar ki, yarım ildir həyətlərdən vağzalı sədası yüksəlmir, ana-atalar övladlarının toyunda qol açıb oynaya bilmirlər. Yarım ildir elimiz toy-bayrama, şadyanalığa həsrət qalıb. Və hər birimiz o xoşbəxt günlərə bir də nə zaman qayıdacağımızı səbirsizliklə gözləyirik. Amma bu kritik vəziyyətdə pandemiyanın həyatımıza diktə etdiyi tələbləri yerinə yetirməyərək edilən məsuliyyətsizliklər sayəsində elə toylara da həsrət qala bilərik, doğmalarımızın yas mərasimlərində iştirak etməyə də...

Əziz həmvətənlər, necə ki gec deyil, üzərimizə düşən vətəndaşlıq borcunu yerinə yetirək. Qaydalara uyaq, uymayanlara xəbərdarlıq edək. Yaşamaq üçün, indi necə yaşamağın şərtlərinə ciddi əməl edək... Ki, həyatımızın sevincli və kədərli anlarını qeyd edərkən nə sağlamlığımızı və həyatımızı təhlükəyə ataq, nə də cərimələnək...

***Yasəmən MUSAYEVA,***
***“Azərbaycan”***

# Koronavirusla ölüm-dirim savaşında...

## Üç aydır pandemiya ilə mübarizə aparan həkim Məlahət İSAYEVA: “Vətəndaşlardan bircə xahişimiz var, bizim əməyimizi öz məsuliyyətləri ilə qiymətləndirsinlər”

*Əvvəli 1-ci səh.*

Məlahət İsayeva üç aydır ki, ağır şərtlər altında koronavirusla mübarizə aparan, ağır xəstələri həyata qaytaran həkimlər komandasında yer alır. Üç aydır ki, ailəsindən, balalarından, doğmalarından ayrı düşüb.

23 ildir 11 saylı şəhər poliklinikasında həkim-terapevt kimi çalışan Məlahət İsayeva TƏBİB-in çağırışına könüllü qoşularaq, aprelin əvvəlindən Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında gözəgörünməz virusa qarşı döyüşür. Qorxu, həyəcan bilmədən, bütün çətinliklərə sinə gərib, “güc birlikdədir” deyib, cəsur həkimlərimizlə bir komanda şəklində birləşərək COVID-19-la fədakarlıqla mübarizə aparır. Deyir ki, burada işləyən bütün həkimlər, tibb bacıları xəstələrin sağalıb evlərinə, ailələrinə dönməsi üçün gecə-gündüz şikayət etmədən çalışaraq vəzifə borclarını yerinə yetirirlər. Bu 3 ay ərzində həm sağaldıb evə yola saldıqları, həm də dünyasını dəyişən xəstələr çox olub.

- Əvvəl yoluxma sayı az idi, xəstələrin vəziyyəti yüngül və orta ağır olurdu. Çünki güclü karantin rejimi vardı. Karantin rejimi yüngülləşəndən sonra xəstələrin sayı get-gedə artmağa başladı. Hazırda klinikamıza daxil olan xəstələrin vəziyyəti daha ağırdı. Xəstə sayı da əvvəlkinə nisbətən çoxdu. Əgər əvvəllər xəstələr qrip və hərarətlə müraciət edirdilərsə, indi yüksək hərarət, ağciyərin ikitərəfli pnevmoniyası ilə klinikaya daxil olurlar. Yüksək hərarət, boğulma, təngnəfəslik xəstələri haldan salır. Hər mərtəbədə 20-30 xəstə var. Hamilə qadınların, uşaqların, yaşlı insanların, xüsusilə şəkərli diabet, arterial hipertenziya, ürək-qan damar sistemli xəstələrin sayı daha çoxdur. Körpə uşaqdan tutmuş, yaşlı insanlara kimi bütün yaş qruplarından xəstələrimiz var. Bu virus uşaq, qoca bilmir, hər kəsi yoluxdurur. Hamilə qadınlar klinikaya ağır vəziyyətdə gətirilir. Bəzilərində qanaxma, bəzilərində hərarət çox yüksək olur, bəzilərininsə öskürəyi dayanmır. Hamilələrimizdə pnevmoniya halları çoxdur. Onların müalicəsi çətin başa gəlir. Çox qorxu, həyəcan keçirirlər, hər an bətnlərindəki körpələri üçün narahatdırlar. Onların da yoluxacağından və ya məhv olacağından ehtiyatlanırlar.

*Həkimin sözlərinə görə, xəstələr ən çox hərarətin düşməməsindən, halsızlıqdan, baş ağrılarından, öskürəkdən, hava çatışmazlığından, ağızda dadın itməsindən, iştahsızlıqdan şikayətlənirlər. Virusla mübarizədə immunitetin güclü olması vacib olduğundan antiviral, antibakterial, vitaminterapiya və sair dərmanlardan istifadə olunur.*

- Xəstələr klinikamıza daxil olanda bir tərəfdən qorxu, həyəcan, təşviş, digər tərəfdən xəstəliyin ağırlığı, hərarət onları əldən salır. Təəssüf ki, itkilərimiz çoxdu. Ağır, müalicəyə tabe olmayan xəstələri reanimasiya şöbəsinə köçürürük. Bir çoxu sağalsa da, sağalmayan, geri dönməyən xəstələr də var. Gözlərimiz önündə neçə xəstə itirmişik. Buna dözmək çox çətindi. Xəstəsinin həyatını xilas edə bilməməyin həkim üçün nə dərəcədə ağır olduğunu sözlə ifadə etmək mümkün deyil... İnsan əzizini itirəndə necə olursa, xəstələrinin itkisi də həkimə o qədər ağır təsir edir. Hansı həkim istəyər ki, onun müalicə etdiyi xəstə ölsün? Əlbəttə, heç bir həkim. Bütün xəstələrə eyni cür can yandırırıq. Gecələr yatmırıq, gündüzlər dincəlmirik. Onların müalicəsi ilə məşğuluq. İnanın ki, 5 dəqiqə oturmağa vaxtımız yoxdu, bir palatadan digərinə qaçırıq. İşimiz çox ağır və gərgindir.

*- Belə iş qrafiki və rejimi ilə yanaşı, saatlarla hava keçirməyən skafandr geyimində olmaq isə həkimlərin yorğunluğunu daha çox artırır. 8 saat fasiləsiz şəkildə o geyimdə ac-susuz hərəkət etmək özü də bir gərginlik, çətinlik yaradır...*

- Hələ Tədris Cərrahiyyə Klinikasına gəlməmişdən əvvəl işlədiyim 11 saylı şəhər poliklinikasında yaradılan filtr otağında çalışırdım. Orada biz artıq skafandr geyinib xəstələri müayinə və müalicə edirdik. TƏBİB-in çağırışı ilə klinikaya gələndə bu formanı geyinmək mənə çətin deyildi. Amma isti havada 8 saat ərzində formada tərin içində, ac, susuz qalmaq, təbii fizioloji tələbatları ödəməmək olduqca çətindir. 3 aydır bu geyimdəyik. Hər gün soyunma otağında paltarlarımızı çıxarırıq. Uniformanın üzərindən hava keçirməyən ağ kamuflyaj formanı geyinirik. Maska, plasmast eynəklər, əlcək taxır, ayaqqabımızın üzərinə və saçımıza baxil keçiririk. Beləcə yaraqlanıb-yasaqlanıb yuxarı mərtəbələrə gedirik. Bu sadaladığım yerlər “təmiz zona” sayılır. Liftdən çıxdıqdan sonra “neytral zona”ya daxil oluruq. “Neytral zona”dan isə hərə öz şöbəsinə keçir.

8 saatlıq üç növbəli iş qrafiki ilə çalışırıq. Səhər növbəsi 8:00-dan 16:00-a, günorta növbəsi 16:00-dan 00:00-a, gecə növbəsi isə 00:00-dan səhər 8:00-a qədərdir. Daim ayaq üstəyik, yatmaq, oturmaq, sayıqlığı əldən vermək olmaz. Hər an xəstələrin həyatda qalması üçün çalışırıq. Yuxusuz gecələr keçiririk. Xəstələrin tez bir zamanda sağalıb ayağa qalxması üçün əlimizdən gələni edirik. İş saatımız bitdikdən sonra “kirli zona”dan “neytral zona”ya gəlir, burada kamuflyajı, əlcəkləri, baxilləri çıxarıb yandırılmaq üçün qoyulmuş zibil qablarına atırıq. Eynəkləri isə dezinfeksiya olunmuş suyun içinə qoyuruq. Əllərimizi spirtlə dezinfeksiya edirik. Ondan sonra əl-üzümüzü yuyuruq. Daha sonra aşağıya düşüb bizi gözləyən avtobuslara minərək qaldığımız hotelə yol alırıq. Bütün bunlardan sonra tibbi heyətin



hansı yorğunluğu yaşadığını təsəvvür edin.

*- Daim xəstələrinin əhvalını yüksək tutmağa çalışan, ürək-dirək verən həkimin özünün psixoloji durumu necədir? Hər gün gördüyü ağrı-acılar, sarsıntılar ona necə təsir edir?*

- Əlbəttə ki, biz də insanıq. Bizim də hisslərimiz, duyğularımız var. Bir tərəfdən gərgin, yorğun iş qrafiki, bir tərəfdən də əsəb, stres. Düzdür, özümüzü ələ almağa çalışırıq. Amma xəstələrimizin ölüm xəbərini eşidəndə kövrəlirik, ağlayırıq. Axı onları neçə müddət müalicə etmişdik, tanıyırdıq. Bizə əziz insanlardı. Elə olub ki, xəstələrimi yuxuda da görüb çox pis olmuşam. Heç yadımdan çıxmaz, bir xəstəni müalicəsi ilə əlaqədar digər klinikaya köçürəndə ağladı ki, ölməyə gedirəm. Dedim, nə danışırsız, siz yaşayacaqsız. İnanmadı mənə, getdi və 3 gündən sonra ölüm xəbəri gəldi. Onun ölümü mənə çox təsir etdi...

Əslində, bizi sarsıdan, kədərləndirən, təsirindən çıxa bilmədiyimiz hadisələr çox olur... Leykoz xəstəmiz vardı. Vəziyyəti çox ağır idi. Hər dəqiqə həyatını itirmək qorxusu vardı. Son günlər ona qan köçürdürdük. Vəziyyəti barədə lazımi orqanlara məlumat vermişdik. Onu təcili olaraq digər xəstəxanaya köçürtmək qərarına gəldilər. Xəstəni təcili yardım maşınına qədər arabada gətirdik. Maşına minəndə üzümə baxıb soruşdu: “Doktor, mən yaşayacam?” Gülümsəyib, “əlbəttə, yaşayacaqsan, hələ uşaqlarının toyunda oynayacaqsan”, - dedim. İnandı mənə. Həvəslə maşına mindi. Bu hadisə mənə çox pis təsir etdi. Çünki ona məcburən yalan danışdım...

*M.İsayeva aprel ayından indiyədək evindən, ailəsindən, doğmalarından uzaqdadır. Aylardır övladlarını öpüb qucaqlaya, bağrına basa bilmir. Balalarının qoxusuna həsrət qalıb. Bunun necə bir əzab olduğunu yəqin çoxları anlayır...*

- Daha çox övladlarım üçün darıxıram. Düzdü, skaypla danışırıq. Bununla belə qucaqlayıb öpmək, bağrına basmaq bir ayrı hissdir... Amma biz könüllüyük. Hər şeyi gözə alıb gəlmişik. İndi xəstələrin bizə daha çox ehtiyacı var. Hələ ki, koronavirusla savaş davam edir. Məni qarşıda nə qədər xəstə gözləyir. Həm də nə qədər yuxusuz gecələr var... Dözə bildiyim, bacardığım qədər burdayam.

*Məlahət İsayeva həm həkim, həm də adi vətəndaş kimi insanlara çağırış edir, özlərini bu gözəgörünməz düşməndən qorumaq üçün sağlamlıqlarının keşiyində durmağı tövsiyə edir. Bu isə o qədər də çətin deyil. İlk növbədə immuniteti gücləndirmək naminə sağlam qidalanmaq, vitamin qəbul etmək, heç olmasa, ev şəraitində idmanla məşğul olmaq, stresdən uzaq durmaq lazımdır. Gigiyena qaydalarına əməl etmək isə ən vacib məqamdır.*

- Təəssüf ki, bəzi insanlar virusun olduğuna inanmır. Bu da öz növbəsində karantin qaydalarına qarşı məsuliyyətsizlik yaradır. Halbuki virusa inanmayan neçə insan ağciyərin ikitərəfli pnevmoniyası, boğulma, təngnəfəsliklə klinikamıza daxil olub. Hər kəsi bu dəhşətli xəstəliyi ciddiyə almağa, karantin rejiminə riayət etməyə çağırıram. Qorxuya, panikaya düşmək lazım deyil. Çünki stres immuniteti aşağı salır. Amma ehtiyatı da əldən buraxmaq olmaz. Çölə çıxarkən mütləq maska taxılmalıdır, sosial məsafə qorunmalıdır. Evə qayıdarkən əllər yuyulmalıdır.

Mən hazırda “Bulvar” hotelində qalıram. Hərdən pəncərədən çölə baxıram və sosial məsafəni qorumadan gəzən, tibbi maska taxmayan insanları görürəm. Həmin anda gücüm çatdığı qədər möhkəm səslə qışqırmaq istəyirəm: “Ey insanlar, maskalarınızı taxın”. Biz çox gərgin iş rejimi ilə çalışırıq. Həyatımızı təhlükəyə atmaqla yanaşı, həm də hər gün nə qədər həyəcan, stres keçiririk.

Vətəndaşlardan bircə xahişimiz var, bizim əməyimizi öz məsuliyyətləri ilə qiymətləndirsinlər. Koronavirusa ancaq belə qalib gələ bilərik.

*Onu da qeyd edək ki, Məlahət İsayeva çalışdığı klinikada baş verən gündəlik hadisələri “Facebook” sosial şəbəkə hesabında qeyd edir. Burada baş verən hadisələri, xəstələr barədə məlumatları, qəhrəman həkimlərimizin fədakarlığını, şəfqətli tibb bacılarının yorulmazlığını oxucularla paylaşır. Nəticədə insanlar həkimlərimizi daha yaxşı tanıyır, səhiyyə işçilərimizin gərgin fəaliyyətləri ilə bir daha tanış olurlar. Bu, virusa inanmayanlar, onu oyun hesab edənlər üçün də bir dərsdir.*

Məlahət İsayeva deyir:

- Klinikada baş verən bütün hadisələri işıqlandırmağa çalışıram. İşimi bitirib gedənə qədər nə olursa, həmin günün sonu onları əvvəlcə telefonumun “qeyd dəftərçə”sinə yazır, sonra da paylaşıram. Bu gün olanları da mütləq qeyd edəcəm. Sabahkıları da, o biri günküləri də... İnanıram və ümid edirəm ki, “gündəliyimin” sonuncu qeydləri nikbin notlarla dolu olacaq. İnsanlarımıza koronavirusun bitdiyini xəbər verib, həmin “gündəliyi” bir daha açmamaq şərti ilə əbədi bağlayacam...

***Xəyalə MURADLI,***
***“Azərbaycan”***

# Dövlət növbəti dəfə vətəndaşının yanında olduğunu sübut etdi

*Əvvəli 1-ci səh.*

İndi budur, hökumət pandemiya dövründə vətəndaşlarına sosial dəstəyinin davamı olaraq iyunun 23-də növbəti qərar qəbul etmişdir. Yeni qərara əsasən, Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron, Yevlax, Cəlilabad, Masallı rayonları üzrə 190 manat birdəfəlik ödəməni almış şəxslərə eyni məbləğdə ödəniş olunacaq. Ödəmə həmin şəxslərin bank kartlarına köçürülmə yolu ilə həyata keçiriləcək.

Nazirlər Kabinetinin digər qərarında isə ünvanlı sosial yardımın müddəti bitmiş aztəminatlı ailələrə, əlillik müddəti başa çatan əlilliyi olan şəxslərə, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara, peşə hazırlığı prosesində fasilə yaranan kursların müdavimlərinə ödənişlərin davam etdirilməsi nəzərdə tutulur.

Məlum olduğu kimi, koronavirusla mübarizə şəraitində aztəminatlı ailələrə ünvanlı dövlət sosial yardımının verilməsi proseduru da sadələşdirilmişdir.

Baş Nazirin bununla əlaqədar imzaladığı yeni qərara əsasən, ölkədə martın 1-dən etibarən xüsusi karantin rejimi müddətində ünvanlı dövlət sosial yardımının təyinolunma müddəti bitmiş aztəminatlı ailələrə həmin yardımın verilməsi iyulun 1-dək uzadılmışdır. Eyni zamanda aprelin 1-dən etibarən işsizlikdən sığorta ödənişinin müddəti bitmiş işsiz şəxslərə minimum məbləğdə işsizlikdən sığorta ödənişi 2 ay, peşə hazırlığı prosesində fasilə yaranmış kursların müdavimlərinə təqaüdün ödənişinin də gələn ayın əvvəlinəcən uzadılması haqqında qərar qəbul olunmuşdur.

Bu sırada qəbul edilən növbəti qərar isə əlilliyi olan şəxslər haqqındadır. Hökumətin yaydığı məlumatda bildirilir ki, Nazirlər Kabinetinin “Yeni növ koronavirus (COVID-19) pandemiyası ilə mübarizə şəraitində əlilliyi olan şəxslərin əlillik müddətinin uzadılması barədə” 2020-ci il 7 aprel tarixli qərarına dəyişiklik edilmişdir. Dəyişikliyə əsasən, qərarın 1-ci hissəsində “xüsusi karantin rejiminin bitdiyi tarixdən sonrakı ayın 1-dək” sözləri, “xüsusi karantin rejimi ilə əlaqədar olaraq, 2020-ci il 1 iyul tarixinədək, xüsusi karantin rejiminin sərtləşdirilməsi tətbiq olunan rayonlarda (şəhərlərdə) isə sərtləşmə müddətinin başa çatdığı tarixdən” sözləri ilə əvəzlənmişdir.

Amma bunlar da pandemiya dövründə Azərbaycan dövlətinin sosial sahədə atdığı son addımların hamısı deyil. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yaydığı məlumatda bildirilir ki, adıçəkilən nazirlikdə fəaliyyət göstərən komissiya daha 100 şəhidin 142 vərəsəsinə birdəfəlik 11 min manat ödəmənin verilməsi haqqında qərar qəbul etmişdir. Yaxın günlərdə həmin vəsaitlərin vərəsələrin bank hesabına köçürülməsi gözlənilir. Söz düşmüşkən qeyd edək ki, ümumilikdə 12 min 281 şəhid vərəsəsinin birdəfəlik ödəmə almaq hüququ müəyyən olunmuş və indiyədək 12 mindən çox şəhidin 18 min vərəsəsinə birdəfəlik ödəmə verilmişdir. Bu isə sözügedən vacib sosial proqramın 98 faiz icrası deməkdir.

Ümumiyyətlə, İlham Əliyevin inkişaf strategiyasının mühüm uğurlarından biri kimi ölkəmizdə sosial təminat sistemi ardıcıl olaraq güclənir və əhatə dairəsi genişlənir. Dövlət başçısının əhalinin rifah halının yaxşılaşdırılmasına yönələn vacib qərarları bir tərəfdən sosial təminat növləri üzrə ödənişlərin məbləğinin davamlı artımına xidmət edir, digər tərəfdən sosial təminat növləri ilə əhatə olunan əhali qruplarının, başqa sözlə, sosial təminatın əhatə dairəsinin genişlənməsinə imkan verir. Bu isə ölkədə sosial sahənin prioritetliyi prinsipinə əsaslanan dövlət modelinin təzahürü deməkdir. Elə pandemiyanın hökm sürdüyü indiki mürəkkəb şəraitdə dövlətə sosial hədəflərinə çatmağa şərait yaradan da məhz bu modeldir.

***Raqif MƏMMƏDLİ,***
***“Azərbaycan”***

## Azərbaycanda koronavirusa daha 544 yoluxma faktı qeydə alınıb, 343 nəfər sağalıb




Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 544 yoluxma faktı qeydə alınıb, 343 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 8 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 16 min 968 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 9369 nəfər müalicə olunaraq sağalıb, 206 nəfər vəfat edib. Aktiv xəstə sayı 7393 nəfərdir.

Ötən müddət ərzində 475 min 525 test aparılıb. Bugünkü test sayı isə 6558-dir.

# “İrəvan şəhəri-necə varsa” monoqrafiyasının nəşrə hazırlanmasına dair müzakirələr aparılıb

Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elektron akt zalında AMEA-nın Humanitar və İctimai Elmlər Bölməsinin Elmi şurasının növbəti iclası keçirilib. Tibbi maskadan istifadə və sosial məsafə gözlənilməklə baş tutan tədbirdə AMEA-nın birinci vitse-prezidenti, Elmi şuranın sədri, akademik İsa Həbibbəyli, şura üzvləri, elmi-tədqiqat müəssisələrinin rəhbərləri və aidiyyəti üzrə şəxslər iştirak ediblər.

Tədbirdə Prezident İlham Əliyevin çağırışına cavab olaraq “İrəvan şəhəri-necə varsa” monoqrafiyasının nəşrə hazırlanması haqqında məsələ müzakirə olunub. Mövzu ilə bağlı danışan akademik İsa Həbibbəyli dövlət başçısının Tərtər rayonuna səfəri zamanı Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən qəbul edilmiş qərarlar, İrəvanın Ermənistana verilməsi, eləcə də buradakı türk mənşəli toponimlərin saxtalaşdırılması məsələlərinə toxunduğunu xatırladıb.

Prezident İlham Əliyevin çıxışından irəli gələn məsələlərin icrasını təmin etmək məqsədilə artıq AMEA-da bir sıra tədqiqatların həyata keçirilməsinə başlanıldığını diqqətə çatdıran İsa Həbibbəyli tədqiqatların nəticəsinin “İrəvan şəhəri - necə varsa”, “Qərbi Azərbaycan - necə varsa” və “Dağlıq Qarabağ - necə varsa” kitablarında da əksini tapacağını qeyd edib. O, sözügedən nəşrlərin rus və ingilis dillərinə də tərcümə edilərək beynəlxalq müstəvidə təbliğatının aparılacağını söyləyib.

Kitabın layihəsini təqdim edən İ.Həbibbəyli qeyd edib ki, ilkin mərhələdə “İrəvan sözünün mənşəyi və İrəvan şəhərinin yaradılması tarixi”, “İrəvan şəhəri qədim dövr və orta əsrlərdə”, “İrəvan xanlığının baş kəndi”, “İrəvan şəhəri çar Rusiyası idarəçiliyində”, “İrəvan şəhəri XX-XXI əsrlərdə” və “İrəvanda Azərbaycan mədəniyyəti və təhsili” fəsillərindən ibarət “İrəvan şəhəri - necə varsa” monoqrafiyasının nəşrə hazırlanması nəzərdə tutulur.

Bugünə qədər AMEA-nın müxtəlif institutları tərəfindən İrəvanın tarixi, arxeologiyası, əhalisi, toponimləri, maddi mədəniyyət nümunələri, xəritəsi, coğrafiyası, iqtisadiyyatı və s. istiqamətlərdə əsərlərin ərsəyə gətirildiyini xatırladan akademik yeni monoqrafiyanın əhatəliyi və sistematikliyi ilə digərlərindən fərqlənəcəyini vurğulayıb.

Sonra Elmi şuranın sədr müavini, akademik Nərgiz Axundova, Dilçilik İnstitutunun direktoru, akademik Möhsün Nağısoylu, Folklor İnstitutunun direktoru, akademik Muxtar İmanov, Qafqazşünaslıq İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Musa Qasımlı, Memarlıq və İncəsənət İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə, İqtisadiyyat İnstitutunun direktoru, professor Nazim İmanov, Arxeologiya və Etnoqrafiya İnstitutunun direktor müavini, professor Nəcəf Müseyibli, Tarix İnstitutunun direktor müavini, tarix elmləri doktoru Tofiq Nəcəfli, Coğrafiya İnstitutunun direktor müavini, coğrafiya üzrə fəlsəfə doktoru Məhərrəm Həsənov və başqaları çıxış edərək nəşri nəzərdə tutulan “İrəvan şəhəri - necə varsa” monoqrafiyası ilə bağlı təklif və mülahizələrini bildiriblər.

Tədbirdə nəşrin hazırlanmasında iştirak edəcək AMEA-nın Tarix, Qafqazşünaslıq, Ədəbiyyat, Dilçilik, Folklor, Memarlıq və İncəsənət, Arxeologiya və Etnoqrafiya, Coğrafiya, İqtisadiyyat institutları, eləcə də Milli Azərbaycan Tarixi Muzeyi, AMEA-nın Naxçıvan Bölməsi, Naxçıvan Dövlət Universiteti və Azərbaycan Dillər Universitetinin vəzifələri müəyyənləşdirilib.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***

## Azərbaycan Respublikası Mərkəzi Bankında maliyyə bazarlarına nəzarət üzrə Vahid Nəzarət və Monitorinq Sisteminin yaradılması ilə bağlı tenderin nəticələrinə dair bildiriş

Azərbaycan Respublikası Mərkəzi Bankı maliyyə bazarlarına nəzarət üzrə avtomatlaşdırılmış Vahid Nəzarət və Monitorinq Sisteminin yaradılması ilə bağlı “Azərbaycan” qəzetinin 09 və 23 aprel 2020-ci il tarixli saylarında dərc edilmiş açıq tenderin nəticələrinə görə Tender komissiyasının 09 iyun 2020-ci il tarixli qərarına əsasən “GTSolyuşnz” şirkəti tenderin qalibi müəyyən edilmişdir.

Qalib şirkətlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

“Azərbaycan” qəzetinin 20 mart 2020-ci il tarixli sayında “Azərsu” ASC-nin daxili vəsaiti hesabına dayaq tipli transformatorlara xidmət etmək üçün xüsusi texnikanın satın alınması ilə əlaqədar dərc olunmuş tenderin davamından “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununun 11-ci maddəsinə əsasən imtina edilmişdir.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

“Azərbaycan” qəzetinin 29 aprel, 23 may və 10 iyun 2020-ci il tarixli saylarında “Azərsu” ASC-nin daxili vəsaiti hesabına açıq tender metodu tətbiq edilməklə elektron satınalma vasitəsilə Ceyranbatan Su Təchizatı İdarəsinin havalandırma sistemində və qazanxana binasında təmir işlərinin satın alınması məqsədilə dərc edilmiş tenderdə iddiaçıların rəsmi müraciətlərinə əsasən tələb olunan sənədlərin qəbulu (tender təklifi və bank təminatı istisna olmaqla) 08 iyul 2020-ci il saat 16:00-a, tender təkliflərinin və təklif təminatlarının qəbulu vaxtı 16 iyul 2020-ci il saat 18:00-a, təkliflərin açılışı isə 17 iyul 2020-ci il saat 16:00-a dəyişdirilmişdir.

İddiaçılar “Azərsu” ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentinə (əlaqələndirici şəxs: Məmmədyar Musayev, 431-47-67/2288, mammadyar.musayev@azersu.az) müraciət edə bilərlər.

***Tender komissiyası***

# DSX: 22 kiloqrama yaxın narkotik vasitənin ölkə ərazisinə keçirilməsinin qarşısı alınıb

Dövlət Sərhəd Xidməti (DSX) Azərbaycan Respublikasının dövlət sərhədlərinin etibarlı mühafizəsi və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirlərini uğurla davam etdirir.

Son günlər ərzində üç halda 21,7 kiloqram narkotik vasitəyə, psixotrop və güclü təsiredici maddəyə oxşar vasitə, preparat və həbin İran İslam Respublikasından Azərbaycan Respublikası ərazisinə gətirilməsinin qarşısı alınıb.

Xidmətin Sərhəd Qoşunlarının “Horadiz” sərhəd dəstəsinin İmişli rayonunun Aranlı kəndi ərazisində yerləşən sərhəd zastavasının xidməti sahəsində İran İslam Respublikası vətəndaşı 1988-ci il təvəllüdlü Sədri Kazım Həmid Azərbaycan Respublikasının dövlət sərhədini İrandan qanunsuz olaraq Azərbaycan Respublikası istiqamətində keçərkən sərhəd pozucusu qismində saxlanılıb. Onun saxlanıldığı yerə baxış keçirilərkən qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə keçirdiyi bağlamada külli miqdarda narkotik vasitə - 4 kiloqram 52 qram heroin, 1 kiloqram 815 qram qurudulmuş marixuana, 505 qram tiryək, psixotrop maddə - 4,9 qram metadon,



1103 qram metamfetamin, güclü təsiredici maddə - 8,9 qram “Tramadol”, 37,4 qram “Preqabalin”, 0,4 qram “Klobazam” aşkarlanaraq götürülüb.

Fakt üzrə Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin müvafiq maddələri üzrə cinayət işi başlanılıb və İran vətəndaşı Sədri Kazım Həmid barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib. Cinayətkar qrupun digər iştirakçılarının müəyyənləşdirilməsi istiqamətində əməliyyat-istintaq tədbirləri davam etdirilir.

Bir neçə gündən sonra həmin sərhəd zastavasının xidməti sahəsində İran İslam Respublikasından Azərbaycan Respublikası istiqamətində iki nəfər tərəfindən dövlət sərhədinin pozulmasının qarşısı alınıb. Həmin şəxslər sərhəd naryadının sayıqlığı nəticəsində qaçaqmal predmetini hadisə yerində ataraq İran istiqamətinə geri qaçıb. Hadisə yerinə baxış keçirilərkən ərazidə heroinə (4 kiloqram 520 qram), qurudulmuş marixuanaya (495 qram) və metamfetaminə (2 kiloqram 60 qram) oxşar maddələr aşkarlanaraq götürülüb.

Növbəti dəfə eyni sərhəd zastavasının xidməti sahəsində heroinə oxşar 6 kiloqram 320 qram, qurudulmuş marixuanaya oxşar 540 qram, həşişə oxşar 210 qram müxtəlif maddələr və 51 flakonda güclü təsir edən vasitə “Mydrax-Tropikamide”yə oxşar maddə aşkar olunub.

Son iki fakt üzrə əməliyyat-axtarış tədbirləri davam etdirilir.

***“Azərbaycan”***

## Azercell abunəçilərinin nəzərinə

“Azercell Telekom” MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 30.06.2020-ci il tarixdə gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.

## B İ L D İ R İ Ş

### “Təmiz Şəhər” ASC cəmiyyətin təsərrüfat sahələrində laborator analizlərin aparılması işlərinin satın alınmasına dair təkliflər sorğusu həyata keçirir

Maraqlanan təşkilatlar (012)464-41-11 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.
Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 03 iyul 2020-ci il tarixədək qəbul olunur.
Ünvan: Bakı şəhəri, AZ1025, Xocalı pr. 55.

***Tender komissiyası***

## Şəki Şəhər İcra Hakimiyyəti 2020-ci ildə yolların asfalt-beton əsaslı təmiri işlərinin satın alınması üçün elektron satınalma vasitəsilə keçirilən

## *açıq tenderə dəvət edir*

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**LOT - 330 (üç yüz otuz) manat**

**Təşkilat: Şəki Şəhər İcra Hakimiyyəti**
**HESAB: AZ03AIIB32051019447000201170**
**VÖEN: 3000104011**
**BANK: “Kapital Bank” ASC Şəki filialı**
**Kodu: 200703**
**VÖEN BANK: 9900003611**
**Müxbir hesabı: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T. AIIBAZ2X**
**Əlaqələndirici şəxs: Alxasov Taleh, tel: (02424) 4-28-70**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *podratçının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 17.07.2020-ci il saat 15:00-a qədər və tender təklifi ilə bank təminatı sənədlərini 27.07.2020-ci il saat 15:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri 28.07.2020-ci il saat 15:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

## ALLAH RƏHMƏT ELƏSİN!

Təhsil Nazirliyinin rəhbərliyi və kollektivi Bakı Dövlət Universitetinin Nanomaterialların kimyəvi fizikası kafedrasının müəllimi, beynəlxalq fizika olimpiada komandasının rəhbəri
**NAQİF NƏBİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin kollektivi Maliyyə naziri Samir Şərifova əzizi
**HƏQİQƏT RÜSTƏM QIZI ŞƏRİFOVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin rəhbərliyi və kollektivi Bakı Apelyasiya Məhkəməsinin hakimi
**NAMİQ MƏMMƏDOVUN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Energetika Nazirliyinin rəhbərliyi və kollektivi nazirliyin əməkdaşı
**HƏSƏN ABBASOVUN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Şəhəri Nəsimi Rayon Məhkəməsinin kollektivi Bakı Apelyasiya Məhkəməsinin sabiq hakimi
**MÜSEYİB HÜSEYNOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Bakı Şəhəri Nəsimi Rayon Məhkəməsinin kollektivi Bakı Apelyasiya Məhkəməsinin hakimi
**NAMİQ MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Eldar Əzizov Azərbaycan Respublikasının Maliyyə naziri Samir Şərifova əzizi
**HƏQİQƏT RÜSTƏM QIZI ŞƏRİFOVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

ASC “Xalq” Bankının rəhbərliyi və kollektivi ASB ASC-nin İdarə Heyətinin sədri
**DOĞAN TANDOĞANIN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Rafiq Hüseynov və Əlikram Qasımov Azərbaycan Respublikası Müdafiə Nazirliyinin idarə rəisi, general-mayor Rasim Babayevə anası
**ŞAHNİSƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Dövlət İqtisad Universitetinin Ümumi iqtisad fakültəsinin 1984-cü il buraxılışlı 932-ci qrupunun məzunları qrup yoldaşları Elçin Abdullayevə əzizi
**ƏDALƏT UMUDƏLİ OĞLUNUN**
Sabirabad rayonunda vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Natiq Seyidəhmədov əzizi elmlər doktoru, professor
**FİRUDİN HACIYEVİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Cəlilabad Rayon Məhkəməsinin kollektivi Bakı Apelyasiya Məhkəməsinin hakimi
**NAMİQ MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Ali Məhkəməsinin kollektivi Bakı Apelyasiya Məhkəməsinin hakimi
**NAMİQ MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Ali Məhkəməsinin kollektivi Ali Məhkəmənin sabiq hakimi
**MÜSEYİB HÜSEYNOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Bakı Apelyasiya Məhkəməsinin rəhbərliyi və kollektivi məhkəmənin hakimi
**NAMİQ MƏMMƏDOVUN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Apelyasiya Məhkəməsinin rəhbərliyi və kollektivi məhkəmənin sabiq hakimi
**MÜSEYİB HÜSEYNOVUN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasının kollektivi klinikanın müalicə işləri üzrə direktor müavini Fəridə Hacıyevaya atası
**FİRUDİN HACIYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 7376
Sifariş 1615
Qiyməti 40 qəpik